RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 68 (8661) BAZAR, 4 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qarabağın potensialı Azərbaycanı iqtisadi cəhətdən daha da qüdrətləndirəcək

## İşğaldan azad edilmiş ərazilərin malik olduğu imkanlar respublikamızın inkişafında böyük rol oynayacaq

Azərbaycanın İkinci Qarabağ müharibəsindəki qələbəsi regionda yeni reallıqlar yaradıb. Bu qələbə eyni zamanda Azərbaycanın iqtisadi qüdrətinin daha da artması üçün real zəmin formalaşdırıb.
Postmüharibə dövrünün reallıqlarını dəyərləndirən Prezident İlham Əliyev bütün çıxışlarında regionda əsas inkişaf istiqamətlərini müəyyənləşdirməklə yeni yol xəritəsinin konturlarını təqdim edir. Həmçinin bölgədə uzunmüddətli sülhün təmin edilməsinin istiqamətlərini də göstərərək ümumilikdə regionun gələcək inkişafı üçün bütün imkanların mövcud olduğunu söyləyir.

### Azərbaycanın gələcək yüksəlişini şərtləndirən konsepsiya

44 günlük Vətən müharibəsində əldə edilən qələbədən sonra ölkəmizin həyatında yeni dövr başlayıb, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq, bərpa prosesinə start verilib. Bütün bu məsələlər İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strategiyasında aydın şəkildə öz əksini tapıb. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritet müəyyənləşdirilib. Bu prioritetlər, əlbəttə ki, Vətən müharibəsində ərazi bütövlüyünü təmin edən Azərbaycanın gələcək yüksəlişinə hədəflənib.

Ölkəmiz həm də region üçün yaxşı gələcək qurmağa hazır olduğunu nümayiş etdirir. Dövlət başçısı bu məsələyə toxunaraq vurğulayıb ki, Azərbaycan artıq yenidənqurma işlərinə, bütün region ölkələri üçün və nəticədə regionda sabitlik üçün faydalı olacaq layihələri həyata keçirməyə başlayıb. Çünki Azərbaycan öz öhdəliklərinə sadiqdir və müharibədən sonra da çox konstruktiv yanaşma nümayiş etdirir. Bu reallıqlar isə uzunmüddətli olacaq. Tarixi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkəmizin ümumi iqtisadiyyatına yönəldilməsi dayanıqlı inkişafa böyük təkan verəcək.

### Postmüharibə dövrünün yeni iqtisadi imkanları

Novruz bayramı ərəfəsində İlham Əliyevin Füzuli, Xocavənd və Şuşaya növbəti səfəri çərçivəsində səsləndirdiyi qətiyyətli fikirlər də bir daha göstərdi ki, Azərbaycanın qalib Sərkərdəsi bölgənin inkişafını şərtləndirəcək layihələrin reallaşmasında maraqlıdır. Hətta işğalçı Ermənistan belə 10 noyabr bəyanatının bütün bəndlərinə əməl edəcəyi təqdirdə bu proseslərin iştirakçısına çevrilə bilər.

Hazırda Azərbaycan dövləti Horadiz-Ağbənd dəmir yolu xəttinin, Füzuli Beynəlxalq Hava Limanının, Füzuli-Hadrut və Hadrut-Cəbrayıl-Şükürbəyli, eləcə də Füzuli-Şuşa yolunun çəkilməsi prosesini reallaşdırır. İcra edilən digər layihələr də ümumilikdə Azərbaycanın gücünü, qüdrətini bir daha nümayiş etdirir.

Mövcud vəziyyəti çox müsbət qiymətləndirən İlham Əliyev də vurğulayır ki, bu gün artıq regionun gələcək inkişafı üçün nadir imkanlar yaranıb. Nikbinliyə səbəb olan digər amil isə odur ki, qonşu dövlətlər də Azərbaycanla eyni mövqeni bölüşürlər. Regionun gələcək inkişafı, inteqrasiya layihələrinin icrası ilə bağlı fikir ayrılığı yoxdur. Postmüharibə dövrü doğrudan da yeni imkanlar açır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar formalaşdırır.

### Zəngəzur türk dünyasının birləşməsi rolunu oynayacaq

Böyük qələbə həm Azərbaycan, həm də qonşu dövlətlər qarşısında yeni imkanlar açdı. İşğaldan azad edilmiş ərazilərimizdə qurulacaq nəqliyyat-logistika imkanları, əlbəttə ki, ilk növbədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasını təmin edəcək.

Ardı 2-ci səh.

# "Cənub qaz dəhlizi" tam sistem kimi fəaliyyət göstərir

## Azərbaycandan mavi yanacaq ixracı getdikcə artır

TAP (Trans-Adriatik Qaz Boru Kəməri) keçən il dekabrın sonunda istifadəyə verilib və həmin vaxtdan indiyədək 1 milyard kubmetr Azərbaycan qazını Yunanıstanın Kipoi bölgəsindəki stansiyadan Avropaya nəql edib. TAP-la ixracın ahəngdarlığı "Cənub qaz dəhlizi"nin tam sistem kimi fəaliyyət göstərməsi deməkdir.

Artıq yalnız Gürcüstan və Türkiyə deyil, bir sıra digər ölkələr də Azərbaycandan mavi yanacaq alır. Məsələn, cari ilin ilk iki ayında ölkəmizdən İtaliyaya 10,7 milyon kubmetr, Bolqarıstana 55,4 min kubmetr təbii qaz ixrac edilib. Bu dövrdə Türkiyəyə 2 milyard kubmetr, Gürcüstana 1,24 milyard kubmetr qaz çatdırılıb. Ümumilikdə iki ay ərzində ölkədən 3 milyard 318,5 milyon kubmetr qaz ixrac edilib. Bu, Dövlət Gömrük Komitəsindən verilən məlumatdır.

TAP-ın idarəetmə direktoru Luca Schieppati da bu kəmərlə artıq 1 milyard kubmetr mavi yanacağın təhlükəsiz şəkildə nəql edildiyini bildirib. Qeyd edilib ki, TAP-ın çatdırdığı qaz həcmləri Avropa İttifaqı üçün yeni etibarlı, təhlükəsiz və sərfəli enerji mənbəyi təmin etməklə yanaşı, enerji yol xəritəsini asanlaşdırmaqda əsas rol oynayır.

Ardı 5-ci səh.

# Audit və yeni dövrün çağırışları

Aprelin 5-də Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasından 25 il ötür. Ölkə auditorları üçün çox əlamətdar olan bu ildönümü ilə əlaqədar Azərbaycan auditinin keçdiyi inkişaf yolundan söz açmazdan əvvəl sonsuz minnətdarlıqla qeyd etməyi vacib sayırıq ki, hamımızda Vətənimizin bu günü və sabahı üçün iftixar hissi doğuran bütün nailiyyətlər kimi, 1996-cı il aprelin 5-də "Auditor xidməti haqqında" qanunun qəbul edilməsi və bunun əsasında ölkədə audit sisteminin formalaşıb bərqərar olması da bilavasitə Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycanda mükəmməl maliyyə nəzarəti sisteminin yaradılması və mövcud nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılması Ulu Öndərimizin dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuşdur. Bu yerdə Azərbaycan cəmiyyətində şəffaflığın bərqərar olunması sahəsində "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" 1996-cı il 17 iyun tarixli fərman və "Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" 1998-ci il 27 yanvar tarixli sərəncam xüsusi qeyd olunmalıdır.

Azərbaycan Respublikasının müstəqil, demokratik inkişaf yoluna qədəm qoymasından sonra ölkədə həyata keçirilən radikal iqtisadi islahatlar və idarəetmə sisteminin təkmilləşdirilməsi, xəzinədarlıq sisteminin yaradılması, nazirlik, komitə və başqa mərkəzi icra hakimiyyəti orqanlarında mövcud olan nəzarət-təftiş qurumlarının ləğvi, dövlət orqanlarına onların öz səlahiyyətlərinə aid olmayan yoxlamalar aparılmasının qadağan edilməsi və bu istiqamətdə ardıcıl şəkildə həyata keçirilən digər məqsədyönlü tədbirlər ölkədə beynəlxalq standartlara cavab verən maliyyə nəzarəti sisteminin qurulmasını zərurətə çevirdi və maliyyə nəzarətinin bütün dünyada geniş yayılmış, mütərəqqi forması olan auditin (auditor xidmətinin) Azərbaycanda da tətbiqi həyati tələbata döndü. Məhz bu baxımdan "Auditor xidməti haqqında" qanunun qəbul olunması və Auditorlar Palatasının yaradılması Ümummilli Lider Heydər Əliyevin demokratik dünya dəyərlərinə sədaqətinin, bazar iqtisadi infrastrukturları sistemində auditə verdiyi dəyər və əhəmiyyətin parlaq təzahürü idi.

Ardı 3-cü səh.

# İcbari tibbi sığortadan ölkənin bütün əhalisi yararlanacaq

Ölkəmizdə müasir səhiyyə sisteminin yaradılması və əhalinin keyfiyyətli tibbi xidmətlə təmin olunması dövlət başçısının yürütdüyü sosial siyasətin tərkib hissələrindən biridir. Respublikamızın iqtisadi qüdrətinin artması səhiyyənin də davamlı inkişafına səbəb olub. İcbari tibbi sığortanın tətbiqi də məhz bu baxımdan inkişafın əhəmiyyətli nəticəsidir.

Bir çox ölkənin səhiyyə sistemində geniş şəkildə tətbiq edilən icbari tibbi sığortanın ölkəmizdə həyata keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin qəbul etdiyi qərar dövlət siyasətinin mərkəzində insan amilinin olduğunu bir daha təsdiqləyir.

Səhiyyə infrastrukturunun müasirləşdirilməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması respublikamızda bu sahədə aparılan genişmiqyaslı quruculuq işlərinin tərkib hissəsidir. Görülən ardıcıl tədbirlər tibbi xidmətin səviyyəsini xeyli yüksəldib.

Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ildən başlayaraq, icbari tibbi sığorta sahəsində bir sıra vacib fərman və sərəncamlar imzalayıb. 2017-ci ildən isə ölkəmizdə icbari tibbi sığortanın pilot layihə şəklində tətbiqinə başlanılıb. Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında 400 min nəfərdən artıq vətəndaş sığorta olunan baza zərfi əsasında ödənişsiz tibbi xidmətlərlə təmin edilib.

Yaradılan şərait və peşəkar tibbi heyətin formalaşması bu işlərin uğurla həyata keçirilməsinə imkan verir. İcbari tibbi sığortanın mərhələli şəkildə həyata keçirilməsi ölkəmizin 10 milyon vətəndaşını əhatə edəcək.

2020-ci il yanvarın 1-dən Azərbaycanda mərhələli şəkildə icbari tibbi sığorta sisteminin tətbiqinə başlanılıb. Qeyd edək ki, icbari tibbi sığortanın ötən il yanvarın 1-dən Naxçıvan Muxtar Respublikasının ərazisində və 20 rayonda tətbiqi nəzərdə tutulurdu.

İkinci mərhələdə - 2020-ci ilin aprel-iyun aylarında 17, iyul-sentyabr aylarında, yəni üçüncü mərhələdə 14 rayonda icbari tibbi sığorta tətbiq olunmalı idi. Dördüncü mərhələdə - oktyabr-dekabr aylarında isə Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun əhalisinin icbari tibbi sığorta sistemindən istifadə edəcəyi bildirilirdi.

İcbari tibbi sığorta pensiyaçılar, aztəminatlı təbəqələr və 18 yaşınadək şəxslər də daxil olmaqla, 4,4 milyon vətəndaşı əhatə edəcək.

Koronavirus pandemiyasının dünyada, o cümlədən ölkəmizdə geniş şəkildə yayılması bu məsələdə də müəyyən problemlərin yaşanmasına səbəb oldu.

Ardı 4-cü səh.




# Vaksinasiya ən səmərəli mübarizə vasitəsi kimi özünü təsdiqləyir



Artıq bir neçə aydır həyata keçirilən vaksinasiya dünyanın bir sıra ölkələrində koronavirusa yoluxma sayının azalmasında özünü göstərməkdədir. Belə ki, əhalisinin əksəriyyətinin ən azı bir doza peyvənd aldığı İsrail və İngiltərə kimi ölkələrdə vaksinasiyanın xəstəxanalara müraciəti və ölüm sayını azaltdığı müşahidə edilir.

Böyük Britaniya Səhiyyə Nazirliyinin məlumatına görə, ötən ilin dekabr ayından bəri peyvəndləmə tədbirləri yaşı 70-dən yuxarı olan ən azı 6 min nəfərin həyatını qorumağa kömək edib. İsraildəki statistik məlumatlar isə göstərir ki, "Pfizer-BioNTech" vaksininin 2 dozası yoluxmadan, xəstəliyin ağır keçməsindən və xəstəxanaya düşməkdən 90 faiz qoruyur. Sadalanan faktlar hazırda bəşəriyyətin COVID-19 bəlasından qurtulmaq üçün yeganə yolunun vaksinasiyadan keçdiyini bir daha təsdiqləyir.

Hazırkı dövrə qədər 138 ölkədə təxminən 565 milyon doz peyvənd tətbiq olunub. İlk baxışdan bu rəqəmlər kifayət qədər yüksək görünsə də, dünya əhalisinin sayı ilə müqayisədə çox az olduğunu görürük. Və elə yenə də hesablamalara əsasən mütəxəssislər düşünürlər ki, vaksinasiyanın belə tempdə davam edəcəyi təqdirdə də bu proses 2023-cü ilə, hətta bir qədər də çox müddətədək çəkə bilər.

Dünyada koronavirusun yeni ştamları da yayılmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının Avropa regional bürosunun məlumatına əsasən Böyük Britaniyada aşkar edilmiş yeni ştamm artıq Avropa regionundakı 50 ölkədə tapılıb. Hazırda Avropada koronavirusun məhz bu variantı üstünlük təşkil edir. Bu da məlumdur ki, həmin variant daha sürətlə yayılır və xəstəliyin ağır keçməsi riskini artırır. Bu ştamm çox təhlükəli olduğundan əlavə ehtiyat tədbirlərinin həyata keçirilməsini tələb edir.

Ardı 4-cü səh.

# Erməni diasporu hərbi xuntaya qarşı çıxdı

İyunun 20-də Ermənistanda keçiriləcək növbədənkənar parlament seçkilərində Paşinyanın və rəhbəri olduğu "Vətəndaş Müqaviləsi" partiyasının qalib gəlmək ehtimalı kifayət qədər yüksəkdir. Keçmiş hərbi xunta da seçkilərə qatılacağını bəyan edib, lakin erməni mediası bildirir ki, ictimaiyyət bundan narazıdır.

Ermənistan ictimaiyyəti ilə yanaşı, ölkədəki proseslərə böyük təsir imkanlarına malik olan diaspor da keçmiş hərbi xuntanın seçkilərdə iştirakının əleyhinədir. Lakin Sarkisyan-Koçaryan koalisiyası hansı yolla olsa belə öz maraqlarını reallaşdırmaqda israrlıdır.

Ermənistanın sabiq müdafiə naziri Seyran Ohanyan da parlament seçkilərində ikinci prezident Robert Koçaryanı dəstəkləyəcəyini bildirib. S.Ohanyan deyib ki, Robertin hakimiyyəti dövründə Ermənistan daha yaxşı mövqedə idi və onun təcrübəsi indiki məqamda vacibdir.

Bütün bunların fonunda son vaxtlar erməni diasporunun keçmiş hərbi xuntaya qarşı təbliğat kampaniyasını genişləndirməsi müşahidə edilir. "4rd.am" saytı yazır ki, xaricdə yaşayan erməni iş adamları keçmiş hərbi xuntanın yenidən hakimiyyətə qayıdacağı təqdirdə investorları ayıq-sayıq olmağa və Ermənistana sərmayə yatırmamağa çağırıblar. Nə qədər ki yenidən hakimiyyətə qayıtmaq üçün səy göstərən Serj Sarkisyan və Robert Koçaryan var, Ermənistana getməmək məsləhətdir. "Keçmiş hakimiyyət rəhbərləri daim yalan danışıblar. Biabırçı hərəkətlərinə görə hətta Ermənistanda investisiya yatırmağa maraq göstərən insanlar onlardan qaçıblar. Adının çəkilməsini istəməyən iş adamlarından biri deyib ki, bizim holdinq kifayət qədər pul xərclədi, üç dəfə Ermənistana getdik, biznes planları hazırladıq, tenderdə iştirak etdik, 10 minlərlə avro sərf etdik, 2017-ci ilin yanvarında bütün materialları tenderə təqdim etdik, lakin bizi aldatdılar. Biz artıq onlara inanmırıq və diasporda da belə fikir formalaşıb ki, seçkilərdə namizəd olsalar belə nə qədər ki Sarkisyan və Koçaryan var, Ermənistana getmək lazım deyil".

Ermənistanda bütün nəzərlər növbədənkənar seçkilərə yönəldiyindən sosial-iqtisadi sfera tam unudulub. Faktiki olaraq iqtisadi tənəzzüldən çıxış üçün heç bir addım atılmır. Aclıq və səfalət Ermənistanın real mənzərəsidir. Əhalinin həyat səviyyəsi hər ötən gün ağırlaşır.

Ardı 8-ci səh.

# Prezident İlham Əliyevin tapşırığına əsasən Şuşa şəhərində bərpa və yenidənqurma tədbirləri davam etdirilir



Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzdən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Şuşa şəhərində bərpa və yenidənqurma tədbirləri davam etdirilir.

Hazırda şəhərsalma prinsiplərinə uyğun olaraq bərpa və yenidənqurma işlərinin layihələndirilməsi üzərində iş aparılır. Həmçinin şəhərdə yaşayış üçün yararsız, istismar müddəti başa çatmış və qəzalı vəziyyətdə olan bəzi binaların sökülməsi də həyata keçirilir.

# Zəngəzur türk dünyasını birləşdirən bir körpüdür



"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının martın 31-də keçirilmiş qeyri-formal Zirvə görüşü türk dövlətləri arasında olan birliyin, bərabərliyin daha da inkişaf etməsinə təkan verdi. Türk dövlətlərinin birliyinin, bərabərliyinin daha da dərinləşməsinə yönəlmiş bu Zirvə görüşündə müzakirə olunan əsas məsələlərdən biri də ölkəmizin 30 ilə yaxın müddət ərzində Ermənistanın işğalı altında qalan ərazilərinin azad edilməsi və qazandığımız tarixi Qələbə ilə bağlı idi".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev bildirib ki, Zirvə görüşündə çıxış edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistanın ərazimizin 20 faizini zəbt edərək, vətəndaşlarımızı amansızcasına öldürməsinə, 1 milyona yaxın həmvətənimizin məcburi köçkün olaraq öz dədə-baba yurdlarını tərk etməsinə, xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmasına, insanlıq tarixinin ən ağır cinayətlərindən biri olan Xocalı soyqırımına diqqət çəkib. Milli Məclis sədrinin müavini deyib: "Ermənistan bu müddət ərzində sülh danışıqlarını yalnız imitasiya etməklə kifayətlənmiş, faktiki olaraq münaqişənin beynəlxalq hüquq müstəvisində həll olunmasını mümkünsüz edərək, bu müddət ərzində təxribatlar törətməklə öz aqressiv davranışlarını daha da artırmışdı".

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi hər 4 qətnamədə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlarımızdan dərhal, tam və qeyd-şərtsiz çıxarılmasının tələb edildiyini bildirən A.Əliyev vurğulayıb: "BMT ilə yanaşı, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatların ölkəmizin haqlı mövqeyini dəstəkləməsinə baxmayaraq, təcavüzkar siyasəti rəhbər tutan Ermənistan hakimiyyəti beynəlxalq normaları kobudcasına pozurdu".

Sədr müavini bildirib ki, ermənilərin növbəti təxribatının qarşısı alındı və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi şanlı Ordumuz tərəfindən əzəli və əbədi torpaqlarımız düşmən işğalından həmişəlik azad olundu. Düşmən məğlub olaraq kapitulyasiya aktına imza atdı. Həmin məğlubiyyətdən bir neçə ay keçməsinə baxmayaraq, Ermənistanda vəziyyət hələ də sabitləşmir. Biz isə qazandığımız bu tarixi Qələbədən sonra işğaldan azad edilmiş ərazilərimizdə dərhal abadlıq-quruculuq işlərinə başlamışıq. İşğaldan azad edilmiş şəhərlərimizə baxdıqda görürük ki, orada bir salamat bina belə qalmayıb. Xarici və yerli jurnalistlərin dediyi kimi, Ağdam Qafqazın Xirosimasıdır.

Milli Məclisin sədr müavininin sözlərinə görə, işğalçılıq siyasəti yürüdən Ermənistan yalnız insanlara qarşı fiziki zor tətbiq etməyib, eləcə də tarixi abidələri məhv edib, məscidləri və ərazidəki bütün infrastruktur obyektlərini dağıdıb. Vandalizm siyasətini dövlət səviyyəsində aparan Ermənistan müharibənin bitməsinə, məğlub olaraq kapitulyasiya sənədini imzalamasına baxmayaraq, hələ də minalanmış sahələrin xəritələrini təqdim etməməklə Azərbaycana olan nifrətini bir daha büruzə verməkdədir.

Təbii ki, biz işğaldan azad edilmiş ərazilərimizi yenidən quracağıq və bu yerlər dünyanın ən gözəl guşələrindən birinə çevriləcəkdir. İşğaldan azad edilmiş Vətən torpaqlarının abadlaşdırılması və orada aparılan quruculuq işləri həm də regiona sülhün gəldiyinin müjdəçisidir.

Adil Əliyev vurğulayıb ki, yeni yaranan imkanlar içərisində ən mühümü nəqliyyat imkanlarıdır. Bu sahədə Zəngəzurun xüsusilə mühüm rolu var. Çünki tarixi torpağımız olan Zəngəzur indi türk dünyasının birləşməsində mühüm əhəmiyyət kəsb edəcək. Zəngəzur Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişafı ilə yanaşı, Avropa ilə Asiyanı bağlayacaq əsas xətt, daha dəqiq desək, türk dünyası arasında yaranmış yeni körpü olacaqdır.

# Əlcəzair nəşri Qarabağdakı yeni reallıqlar haqqında analitik məqalə yayıb




"Əl Əxbariya" nəşri Əlcəzair Universitetinin professoru Yusif Xorinin "Qarabağın azad edilməsindən sonra yaranmış yeni reallıqlar" sərlövhəli analitik məqaləsini yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Qarabağın işğaldan azad edilməsindən və Ermənistanın məğlubiyyətindən sonra Cənubi Qafqaz regionunun geosiyasi xəritəsinin dəyişdiyi, Azərbaycanın dünya birliyinin iqtisadi cəhətdən inkişaf etmiş, hərbi və siyasi baxımdan qüdrətli ölkəsi kimi 44 günlük müharibədən sonra nüfuzunu daha da artırdığı qeyd olunur.

Əlcəzairli professor yazır: "Biz görürük ki, regional alyansların mövqeyi daha da aydınlaşıb. Rusiya müharibə vaxtı hücuma məruz qalmayan, əksinə, başqasının torpağını işğal etmiş və təcavüzkar dövlət kimi tanınan Ermənistanı dəstəkləmədi. Azərbaycanla qardaş bağları olan Türkiyə isə Bakıya tam dəstəyini ifadə etdi. İrana gəldikdə, rəsmi Tehran Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan etdi. Ağır məğlubiyyətə düçar olan və kapitulyasiyaya imza atan Ermənistanda ölkədaxili siyasi sarsıntılar mərhələsi başlandı. Bu ölkədə qeyri-sabitlik və xaos ermənilərin regionda olan-qalan rolunun tamamilə itirilməsi ilə nəticələnəcək".

Məqalədə vurğulanır ki, müharibədən sonra Türkiyə-Azərbaycan alyansı daha da möhkəmlənib. Diqqətə çatdırılır ki, bunun sayəsində Azərbaycan regionun ən güclü dövləti kimi mövqeyini möhkəmləndirib, Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın müxtəlif sahələrində böyük regional layihələr həyata keçirmək üçün yaxşı imkanlar əldə edib.

# İtaliyanın Azərbaycandakı səfirinin ölkəmizdəki diplomatik missiyası başa çatır



Aprelin 3-də xarici işlər naziri Ceyhun Bayramov İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Auqusto Massari ilə diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Azərbaycan ilə İtaliya arasında mövcud olan yüksəksəviyyəli əməkdaşlıq münasibətlərini qeyd edərək, iki ölkə rəhbərləri səviyyəsində imzalanmış çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair birgə bəyannamənin bunun bariz nümunəsi olduğunu vurğulayıb.

Səfir Auqusto Massari Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ona göstərilən diqqəti və həyata keçirilən əməkdaşlığı məmnunluqla qeyd edib. İki ölkənin nümayiş etdirdiyi həmrəyliyin Azərbaycan ilə İtaliya arasında münasibətlərin yüksək səviyyədə inkişafına tam uyğun olduğunu ifadə edib.

Tərəflər ölkələrimiz arasında bütün istiqamətlər üzrə əməkdaşlıq münasibətlərinin genişləndirilməsi perspektivlərini vurğulayıb, bu xüsusda qarşılıqlı səfərlərin həyata keçirilməsinin əhəmiyyətini qeyd ediblər.

Nazir Ceyhun Bayramov səfirin ölkəmizdə diplomatik fəaliyyətini yüksək dəyərləndirərək, iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinə verdiyi töhfəyə görə ona təşəkkürünü bildirib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanla Türkiyə yüksək texnologiyalar və innovasiyalar sahəsində müzakirələr aparıb



Azərbaycanla Türkiyə yüksək texnologiyalar və innovasiyalar sahəsində müzakirələr aparıb. AZƏRTAC xəbər verir ki, bu barədə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev deyib.

"Ölkəmizdə səfərdə olan Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşdüm. Görüş zamanı yüksək texnologiyalar və innovasiyalar mövzuları ətrafında müzakirəmiz oldu, söhbətimiz maraqlı keçdi", - deyə nazir qeyd edib.

# Azərbaycan Ordusunda ehtiyata buraxılan hərbi qulluqçuların yola salınması mərasimi keçirilib



Prezident İlham Əliyevin "Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" müvafiq sərəncamının icrası Azərbaycan Ordusunda davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, 2020-ci il oktyabrın 30-dək "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ehtiyata buraxılırlar.

Bu münasibətlə Şuşa şəhərində və digər ərazilərdə yerləşən hərbi hissələrdə ordudan tərxis olunan hərbi qulluqçuların yola salınması mərasimi keçirilib.

Əvvəlcə Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə Vətən müharibəsində qazanılan parlaq Qələbədən, Azərbaycanın əsgər və zabitlərinin qəhrəmanlıq, şücaət göstərməklə şərəfli missiyanı yerinə yetirərək öz doğma torpaqlarımızı işğalçılardan azad etməsindən danışılıb. Komandanlığın təbrik-müraciəti hərbi qulluqçulara çatdırılıb, hərbi xidməti uğurla başa vurmuş gənclərə və xidmətə yeni başlayan əsgərlərə uğurlar arzulanıb.

Gənc əsgərlər isə silahdaşları adından özündən əvvəlki döyüşçülərin ənənələrini davam etdirəcəklərinə, ərazi bütövlüyümüzü göz bəbəyi kimi qoruyacaqlarına and içiblər.

Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

# "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, müharibə veteranları və iştirakçılarının sosial müdafiəsi üzrə" İşçi Qrupunun iclası keçirilib

Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdindəki "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, müharibə veteranları və iştirakçılarının sosial müdafiəsi üzrə" İşçi Qrupunun iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, aidiyyəti qurumların nümayəndələrinin təmsil olunduğu İşçi Qrupun rəhbəri, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov dövlət başçısının tapşırığına əsasən şəhid ailələrinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, müharibə veteranları və iştirakçılarının genişmiqyaslı sosial dəstək tədbirləri ilə əhatə olunduqlarını, əlaqədar məsələlərin daim diqqət mərkəzində olduğunu vurğulayıb.

Qeyd edilib ki, postmüharibə dövrü üzrə sosial dəstək tədbirləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2859 şəhidin 7303 ailə üzvünə 13225 istiqamət üzrə sosial ödənişlər təyin edilib. Vətən müharibəsinin 228 nəfər müharibə əlilinə də sosial ödənişlər təyin edilib, mülki şəhidlərimizin ailələrinə sosial ödənişlərin təyinatı artıq yekunlaşdırılıb.

Mühüm dəstək tədbiri kimi, şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı geniş vüsət alıb. Dövlət başçısının sərəncamı ilə 2021-2025-ci illərdə 11 min, o cümlədən 2021-ci ildə 3 min şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin olunacaq. 2021-ci ilin planı üzrə artıq 200 mənzil onlara verilib. Eyni zamanda postmüharibə dövründə həmin kateqoriyalardan olan 5329 nəfərin məşğulluğu təmin olunub. Onlardan 4098 nəfəri özünüməşğulluq proqramına cəlb olunub.

2895 ailəyə, ümumilikdə şəhid ailələri üzvləri, müharibə əlilləri, veteranları və iştirakçılarından, habelə itkin düşənlərin ailə üzvlərindən ibarət 9 minədək şəxsə sosial-psixoloji dəstək göstərilib, onlardan bir qisminə ödənişsiz dərman verilib. Nazirliyin reabilitasiya müəssisələrində 500, Bakı Sağlamlıq Mərkəzində 88 hərbçiyə psixoloji yardım göstərilib. 511 müharibə əlilinə 2370 reabilitasiya vasitəsi verilib, 16 hərbçi yüksək texnologiyalı protezlə təmin edilib. Daha 12 hərbçinin müasir protezlə təmini üçün onlardan ölçülər götürülüb, mühərrikli təkərli oturacaqla təminata başlanıb. Ailə üzvlərindən əlilliyi olan 300-dən çox şəxsə birdəfəlik maddi yardım ayrılıb.

Səhiyyə Nazirliyi tərəfindən Buzovna qəsəbəsində istifadəyə verilən Reabilitasiya Mərkəzində 500 hərbçiyə tibbi reabilitasiya, o cümlədən 400 nəfərinə eyni zamanda psixoloji yardım göstərilib. Ümumən, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə, Fövqəladə Hallar nazirliklərinin müəssisələrində 2731 nəfərə psixoloji yardım göstərilib. Silahlı Qüvvələrin Baş Klinik Hospitalında psixoloji problemlərlə bağlı 1066 nəfər müayinə olunub.

TƏBİB-in tibb müəssisələrində yaralı hərbçilərə ixtisaslaşdırılmış tibbi yardım, habelə həmin müəssisələrdə 3492 nəfərə psixoloji yardım göstərilib. Şəhid ailəsi üzvləri, müharibə veteranları və iştirakçılarından ibarət 2172 nəfər müvafiq tibbi xidmətlərlə təmin edilib. Gənclər və İdman Nazirliyi Milli Elmi və Praktik İdman Tibbi və Reabilitasiya İnstitutunun əməkdaşları tərəfindən 177 hərbçiyə yardım göstərilib, 46 nəfərə fiziki və psixoloji reabilitasiya dəstəyi davam edir.

Mərkəzi Bank, "Azərsığorta" tərəfindən 13264 şəxsə sığorta ödənişi verilib, 1003 şəhidə aid 1720 kredit üzrə 7,9 milyon manatdan çox məbləğdə borc öhdəliyi tam silinib. İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə ipoteka kreditinin olduğu müəyyən edilmiş 83 şəhidin 3 484 643 manat kredit öhdəliyi Həyat Sığortası üzrə fəaliyyət göstərən 4 şirkət tərəfindən ödənilib. Şəhid ailəsi üzvlərinə aid 286 kredit üzrə 633 min manat borc öhdəliyi tam silinib.

2021-ci il 1 aprel tarixədək "YAŞAT" Fondunun fəaliyyət istiqamətləri üzrə 16 milyon 718 min 386,33 manat vəsait 1210 şəhid ailəsi üzvü, 1424 yaralı və 3 itkin ailəsi üzvünün məişət şəraitinin yaxşılaşdırılmasına, 32 şəhid ailəsi üzvünün, 1 yaralının təhsil, 479 şəhid ailəsi üzvünün, 322 yaralı və 2 itkin ailəsi üzvünün istehlak kreditləri, 401 şəhid ailəsi üzvü və 97 yaralının tibbi xərclərinə yönəldilib.

İclasda Türkiyə və İsraildən dəvət olunmuş həkimlər tərəfindən yaralıların müayinələrinin aparılması, onların müalicəsi və protezlərlə təminatı, ağır yaralıların müalicə və əməliyyat olunması məqsədilə Türkiyəyə göndərilməsi sahəsində görülmüş işlər də qeyd edilib.

"YAŞAT" Fondu və "Bravo" marketlər şəbəkəsinin birgə təşkilatçılığı ilə şəhid ailələrinə və tibb müəssisələrində yataq şəraitində müalicə alan ağır yaralılara 368 min manat dəyərində 4000 qutu Novruz sovqatları paylanıldığı bildirilib, digər dəstək istiqamətlərində görülmüş işlər diqqətə çatdırılıb.

İclasda İşçi Qrup tərəfindən görüləcək işlər müzakirə olunub və müvafiq tədbirlər üzrə təkliflər müəyyənləşdirilib.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Qarabağın potensialı Azərbaycanı iqtisadi cəhətdən daha da qüdrətləndirəcək



*Əvvəli 1-ci səh.*

Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşündə çıxış edən Qazaxıstanın birinci Prezidenti, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev də vurğuladı ki, İkinci Qarabağ müharibəsi ilə bağlı bəyanatın imzalanması böyük İpək yolunun çiçəklənməsi üçün yeni imkanlara yol açır və Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən istifadə etməklə Xəzər dənizinin rolunu artırır.

Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev isə bir daha tərəfdaş ölkələrə mesaj ünvanlayaraq işğaldan azad edilmiş ərazilərdə yaradılacaq yeni nəqliyyat dəhlizinin imkanlarından yararlanmağa çağırdı. Azərbaycanın artıq Zəngəzur dəhlizi üzərində çox fəal iş apardığını deyən İlham Əliyev bəyan etdi ki, işlər yekunlaşdıqdan sonra qədim Azərbaycan torpağı olan Zəngəzur türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda digər ölkələr üçün əlavə imkanlar yaradacaq.

Prezident məğlub Ermənistana da o yolu göstərdi. Bildirdi ki, bu imkanlardan Ermənistan da yararlana bilər. Çünki bu ölkənin hazırda müttəfiq olduğu Rusiya və qonşu olduğu İranla dəmir yolu əlaqəsi yoxdur. Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən keçə bilər: "Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər".

Göründüyü kimi, böyük qələbə həm də ölkəmiz qarşısında geniş iqtisadi imkanlar açıb. İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında reallaşacaq yeni qlobal layihələr Azərbaycana iqtisadi və siyasi dividendlər gətirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi Zəngilan rayonunun Turabad kəndinin görüntülərini paylaşıb




Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Zəngilan rayonunun işğaldan azad edilmiş Turabad kəndinin görüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Turabad kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 21-də kəndi işğaldan azad edib.

# Naxçıvanda yeni meyvə bağı salınıb



Naxçıvan Muxtar Respublikasında ekoloji mühitin qorunması insanların sağlam həyat şəraitində yaşamasına xidmət edir. Bu səbəbdən də yaşıllaşdırma tədbirləri mütəmadi olaraq davam etdirilir, yaşıllıq zolaqlarının sahəsi genişləndirilir, ətraf mühit qorunur. İnsanlara təbiətə qayğı hissi aşılayan yaşıllaşdırma tədbirləri, xüsusilə iməciliklərin keçirilməsi həm də kənd təsərrüfatının mühüm qolu olan meyvəçiliyin inkişafına təkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, aprelin 3-də muxtar respublikada yaz mövsümünün ilk iməciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Uzunoba gölünün ətrafında keçirilən iməcilikdə iştirak ediblər. İməcilik iştirakçıları 7 hektar ərazidə 1600 müxtəlif meyvə və üzüm tingləri əkib, aqrotexniki qulluq göstərilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov iməcilikdə iştirak edib, meyvə tingləri əkib.

Məlumat verilib ki, bu ilin yaz əkini dövründə muxtar respublikada 231 hektardan artıq sahədə meyvə və üzüm bağları salınacaq, yaşıllaşdırma, bərpa əkinləri aparılacaq, toxmacarlıq yaradılacaq və toxumla əkin həyata keçiriləcəkdir. Əkin zamanı 120 mindən artıq müxtəlif meyvə və meşə tinglərindən, 1300 kiloqram toxumdan istifadə olunacaqdır.

Həmin gün ümumilikdə muxtar respublikanın bütün rayonlarında 20 hektar ərazidə yeni meyvə bağı və yaşıllıq zolaqları salınıb, 12 mindən artıq ting əkilib. 9 hektar ərazidə isə bərpa əkini aparılıb.

# Noyabr qələbəsi Ağdaban faciəsinin qisasını aldı



1993-cü ilin əvvəllərində Azərbaycanda daxili vəziyyət son dərəcə kəskinləşmişdi. Dövlət idarəçiliyində yol verilən nöqsanlar, səriştəsizlik, ambisiyalar həm Ermənistanın Azərbaycandan ərazi iddiasına qarşı aparılan xarici siyasəti məhdudlaşdırırdı, həm də mərhələlərlə dövlət çevrilişinə yaxınlaşdırırdı. Orduda mövcud özbaşınalıq, vahid komandanlığın olmaması, ordu rəhbərliyində də, yerli özünümüdafiə taborlarında da bu və ya digər yollarla rəhbərliyə gətirilmələr dövlətçilik üçün real təhlükə yaratmışdı. AXC - Musavat cütlüyü isə bu problemləri həll etmək iqtidarında deyildi.

Regionda hərbi vəziyyət gərginləşmişdi. Dövlətin hərbi köməyi olmadığına görə kəlbəcərlilər, Kəlbəcərin yerli müdafiə taboru həmin vaxtlarda imperiyanın hərbi yardımından kifayət qədər bəhrələnən Ermənistanın silahlı birləşmələrinin hücumlarının qarşısını ala bilmək gücündə deyildi. Düşmən hələ 1992-ci il aprel ayının 8-də rayonun Ağdaban kəndində böyük faciə törətmişdi - 39 nəfər kənd sakinini öldürmüşdü, 5 nəfəri girov götürmüşdü, 100-dən artıq evi yandırmışdı. Düşmən Azərbaycan dövlətinin daxili siyasətdə üzləşdiyi kəskin qarşıdurmalardan, dövlətin əraziyə mümkün yardımlar etməməsindən (bəlkə də etmək istəməməsindən) istifadə edərək mart ayının 27-dən Kəlbəcərə genişmiqyaslı hücuma başladı. 1993-cü il aprelin 2-də rayon Ermənistan ordusu tərəfindən işğal edildi. 511 nəfər kəlbəcərli şəhid oldu, 231 nəfər itkin düşdü. 172 mədəniyyət obyekti, 1 muzey və çoxlu tarixi abidələr dağıdıldı. İşğal zamanı və işğaldan sonra meşələrin sistemli şəkildə, məqsədyönlülüklə yandırılması rayona qarşı ekoloji terror idi, bu işğal mahiyyəti etibarilə Xocalı faciəsinin davamı oldu.

Kəlbəcərin işğalından sonra BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 822 saylı qətnamədə qeyd edilirdi ki, bütün işğalçı qüvvələr Kəlbəcərdən, eləcə də Azərbaycanın işğal olunmuş digər rayonlarından dərhal çıxarılmalıdır. Havadarlarına arxalanan Ermənistan beynəlxalq təşkilatın bu qətnaməsini də yerinə yetirmədi.

Prezident İlham Əliyev Kəlbəcərin azad edilməsi münasibətilə xalqa müraciətində dedi: "Azərbaycan Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətə gəldi. Ancaq ondan sonra nə oldu? Ondan sonra bütün səylərini öz laxlamış hakimiyyətini möhkəmləndirmək, ölkəmizdə repressiyalar təşkil etmək, senzuranı tətbiq etmək və digər antidemokratik addımlar atmağa yönəltdi. Torpaqlarımız işğala məruz qalırdı. Azərbaycan Xalq Cəbhəsi, onun rəhbərliyi ancaq bir məqsədi güdürdülər ki, öz ciblərini doldursunlar, öz yaxın adamlarını vəzifələrə təyin etsinlər və öz hakimiyyətinin ömrünü uzatsınlar. Kəlbəcərin işğal altına düşməsi bax, bu çirkin addımların nəticəsi idi".

Kəlbəcərin erməni işğalından azad edilməsi təkcə kəlbəcərliləri deyil, hər birimizi sevindirdi. Bu qələbə həm də xalqla Müzəffər Ali Baş Komandanın və ordunun qırılmaz və möhtəşəm birliyinin təzahürüdür.

2 aprel tarixinin yaralarının ağrı-acılarını 25 noyabr tarixi unutduracaq. Kəlbəcərdə qələbəmizi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatlar, müxtəlif miqyaslı beynəlxalq təlimlər və ordumuzun dünyanın ən güclü Silahlı Qüvvələrindən biri olması təmin etdi. Bunun nəticəsi olaraq Vətən müharibəsində möhtəşəm Zəfər qazanıldı. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi və mühüm strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad edildi. Təslim olan düşmən birgə bəyanata uyğun olaraq noyabrın 25-də Kəlbəcərdən çıxdı.

Ermənistan silahlı qüvvələrinin Kəlbəcərdən çıxması Prezident, qalib sərkərdə İlham Əliyevin uzaqgörən, düşünülmüş, düzgün taktika və strategiyasının parlaq nəticəsinin təzahürüdür. Bu Zəfər həm də şanlı Azərbaycan Ordusunun igid, qorxmaz, qəhrəman əsgər və zabitlərinin doğma torpaqlarımız uğrunda yüksək hərbi peşəkarlıq, tükənməz Vətən sevgisi və qəhrəmancasına vuruşmalarının əyanı nümunəsidir.

Kəlbəcərin azad edilməsi orada yerləşən tariximizin bizə qayıtmasıdır. Kəlbəcər rayonu ərazisindəki memarlıq abidələrinin əksəriyyəti Qafqaz Albaniyası dövrünün tarixidir.

Faşist ideologiyasının daşıyıcısı kimi ermənilər Kəlbəcərdə qanunsuz qazıntılar aparıb və tapılmış qiymətli tarixi əşyaları Ermənistana daşıyıblar. Bu, təkcə Azərbaycana deyil, tarixə, bəşəriliyə xəyanətdir. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının, "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının 1999-cu il protokolunun (Ermənistan bu protokolun üzvüdür), "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyasının tələblərinin pozulmasıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu vandalizmi törədən qaniçən düşmənin xalqımıza vurduğu maddi və mənəvi ziyana görə layiqli cəzasını alması üçün dövlətimizin əlaqədar qurumları nüfuzlu beynəlxalq təşkilatlarla birlikdə bütün hüquqi imkanlardan istifadə edəcək. Artıq bu istiqamətdə işlər davam etdirilir.

İşğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması başlanılıb. Kəlbəcər də yenidən dirçələcək, ermənilərin söndürdüyü ocaqlar yenidən alışacaq. Kəlbəcərlilər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ona ikinci həyat verəcəklər.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

# Audit və yeni dövrün çağırışları

*Əvvəli 1-ci səh.*

Ölkəmizdə auditin yaranması və bərqərar olması Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin, inkişafı və beynəlxalq arenaya çıxması isə Prezident İlham Əliyevin adı ilə bağlıdır. Çünki dünyanın heç bir ölkəsində belə mükəmməl hazırlanmış uzunömürlü, beynəlxalq maliyyə qurumları və xarici həmkarlarımız tərəfindən yüksək dəyərləndirilmiş və dünyada getdikcə model qanun səviyyəsində qəbul edilməyə başlamış nə audit qanunvericiliyi var, nə də dövlət və ya hökumət başçısı səviyyəsində göstərilən diqqət və qayğı. Bunun bariz nümunəsi kimi Auditorlar Palatasının üzvləri və əməkdaşlarının yüksək dövlət təltiflərinə layiq görülməsi ölkə auditorlarını bir daha ruhlandırmaqla bərabər, üzərimizə düşən vəzifələri yeni dövrün çağırışları tələbindən daha məsuliyyətlə işləməyə sövq edir.

Azərbaycanda auditin keyfiyyətcə yeni inkişaf mərhələsi 2003-cü ildən indiyə qədərki dövrü əhatə edir. Məhz bu dövrdə auditin hüquqi qanunvericilik bazası təkmilləşdirilmiş, audit ölkənin iqtisadi və ictimai həyatında möhkəmlənmiş, Azərbaycan auditinin beynəlxalq qurumlar tərəfindən tanınması və xarici əlaqələrinin güclənməsi baş vermişdir və bu sahədə iş indi də davam etdirilməkdədir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası güclədikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir. Çünki audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində sərmayələrin cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. Özəl sərmayələrin dəstəyinə nail olmaq əlverişli sərmayə mühitinin yaxşılaşdırılması, şəxsi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsi, mülkiyyət formasından asılı olmayaraq bütün sərmayədarlar üçün daha əlverişli rəqabət mühitinin yaradılması, sərmayə fəaliyyətinin normativ hüquqi bazasının daha da təkmilləşdirilməsi, sərmayə axınının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsi ölkə Prezidentinin iqtisadi siyasətində prioritet məsələlərdir. Həmçinin Azərbaycanın tranzit ölkə kimi potensialının gücləndirilməsinə, müasir texnologiyaların ölkəmizə gətirilməsinə və informasiya-telekommunikasiya sistemlərinin inkişafına xüsusi önəm verilir.

Belə şəraitdə ölkəmizdə uğurla həyata keçirilən islahatlar kontekstində iqtisadi inkişafın sürətləndirilməsi və onun səmərəliliyinin yüksəldilməsi, resurslardan səmərəli istifadənin təmin olunması, bu məqsədlə bütün növ məsrəflərin və əldə edilmiş nəticələrin uçotunun düzgün qurulması, istehsal proseslərinin və əldə edilən nəticələrin hərtərəfli təhlili və onların hesabatda doğru-düzgün əks etdirilməsi və mövcud nəzarət və hesabatlılıq sisteminin təkmilləşdirilməsi iqtisadi inkişafın təminatverici bir amili kimi diqqət çəkir.

Son illərdə ölkəmizə mühasibat uçotunun və hesabatlığın islahatına, auditin və maliyyə nəzarətinin beynəlxalq standartlara uyğun qurulmasına xüsusi diqqət yetirilməsi də müəyyən mənada bu amillə əlaqədardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək: "Biz bütün maliyyə sistemində şəffaflığı təmin etməliyik və belə olan halda, Azərbaycanda həm korrupsiyanın aradan qaldırılması məsələsi öz həllini tapa bilər, həm də xərclər Azərbaycanın iqtisadiyyatının inkişafına daha məqsədyönlü şəkildə xidmət göstərə bilər". Bu istiqamətdə həyata keçirilən tədbirlərin əsas qayəsi Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasını, beynəlxalq mühasibat və uçot standartlarının və beynəlxalq audit standartlarının ölkəmizdə reallaşmasına zəmin yaratmaqdan ibarətdir.

Fəaliyyət göstərdiyi ilk illərdən etibarən Auditorlar Palatasının çoxşaxəli fəaliyyətində mühüm yer tutan təbliğat və nəşr işləri də həm sahibkarlıq fəaliyyətinin bir növü olan auditor xidmətinin təbliğinə, dövlətin maliyyə-iqtisadi fəaliyyətinin həyata keçirilməsi, iqtisadi demokratiyanın genişləndirilməsi və ölkədə maliyyə şəffaflığının bərqərar edilməsi vəzifələrinin həllində auditin yeri və rolu barədə dolğun təsəvvürlərin formalaşmasına, cəmiyyət tərəfindən auditin idarəetmə prosesində nəzarət-analitik infrastruktur kimi qəbul edilməsinə yardımçı olmaq, həm də auditor kadrlarının hazırlanması və onların peşə-ixtisas səviyyəsinin, auditor peşəsinin nüfuzunun yüksəldilməsinə kömək etmək məqsədi güdür.

Azərbaycanda auditin 25 illik inkişaf təcrübəsi audit sistemində bəzi məsələlərin də təxirə salınmadan həllini zəruri edir. Belə ki, bazar infrastrukturu olmaq etibarilə milli iqtisadiyyatın, ilk növbədə sahibkarlığın inkişafına töhfəsini daha da artırmaq üçün auditor xidmətinin daha geniş anlamda qəbul edilməsi, həmin anlayışa sifarişçilərə iqtisadi strategiyaya dair məsləhət və tövsiyələr verməkdən tutmuş optimallaşdırma məsələlərinə qədər əhatəli bir xidmət sahəsinin daxil edilməsi tələb olunur. Beynəlxalq audit praktikasında istifadə olunan fəaliyyət növlərinin və metodlarının geniş tətbiqi ölkəmizdə auditin təşkilinin əsas istiqamətləri kimi mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, Azərbaycanda auditin dünya standartları səviyyəsində təşkili ona yalnız mühasibat uçotu kontekstində baxılmasını yox, idarəetmə prosesində nəzarət-analitik infrastruktur elementi kimi qəbul olunmasını tələb edir.

Müasir şəraitdə Azərbaycanın innovativ iqtisadiyyatında auditin inkişaf xüsusiyyətlərinin öyrənilməsi, keyfiyyətli uçot və auditin formalaşdırılması problemlərinin, onların həlli yollarının aşkara çıxarılması böyük rol oynayır. Bunu nəzərə alaraq Azərbaycan Respublikasının Auditorlar Palatası 2019-cu ildə Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiya işlənib hazırlanmış və həmin konsepsiyanın tətbiqinə başlanmışdır.

İqtisadiyyatımızın davamlı və səmərəli inkişafı, rəqabətqabiliyyətliliyin yüksədilməsi ilə bərabər sosial və iqtisadi innovasiyanın genişləndirilməsi, qabaqcıl informasiya və kosmik texnologiyaların tətbiqi ölkəmizi nəinki regional liderə çevirmiş, həm də getdikcə dünyada şiddətlənən qlobal risklər və iqtisadi-maliyyə böhranlarına rəğmən iqtisadiyyatımızın davamlı inkişafına zəmin yaratmışdır. Təbii ki, bu uğurun qazanılmasında Azərbaycan Prezidentinin böyük ustalıqla və uzaqgörənliklə reallaşdırdığı fəal çoxvektorlu, bərabər parnyorluq prinsiplərinə əsaslanan xarici və daxili siyasəti müstəsna əhəmiyyətə malikdir. Məhz bu baxımdan müasir şəraitdə digər sahələrdə olduğu kimi, auditdə və hesabatlılıqda ən cəlbedici müzakirə obyektlərindən biri də qabaqcıl texnologiyaların və süni intellektin üstünlüklərindən istifadə, düşünülməmiş qəfil tətbiqinin isə fəsadlarının neytrallaşdırılması təşkil edir.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatlar, o cümlədən sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, kölgə iqtisadiyyatının azaldılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflıq amilinə xüsusi önəm verilməsi Azərbaycanda dayanıqlı və inklüziv iqtisadiyyatın durmadan inkişaf etməsi üçün zəmin yaradır. Belə şəraitdə sosial-iqtisadi islahatların mühüm amillərindən biri olan şəffaflığın təmin edilməsi istiqamətində müstəqil audit də özünəməxsus rol oynamaqdadır.

Azərbaycan auditinin əldə etdiyi uğurlar, onun, Prezidentin sözləri ilə desək, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət etməsi ölkəmizdə auditin inkişafına güclü siyasi dəstəyin mövcudluğu ilə əlaqədardır. Bununla belə, Azərbaycanda müstəqil auditin qarşısında duran problemlər yeni dövrün çağırışları nəzərə alınmaqla müasir və dünya təcrübəsinə əsaslanan yanaşmanın tətbiqini ön plana çəkir.

Auditorlar Palatası tərəfindən hazırlanan 2021-2030-cu illəri əhatə edəcək auditin üçüncü inkişaf konsepsiyası Azərbaycanda auditor fəaliyyətinin müasir vəziyyəti və onun inkişafına mane olan əsas problemlər, auditor xidmətinin keyfiyyət problemləri, auditor fəaliyyətində şəffaflığın artırılması, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə auditor xidmətlərinə tələbatın və ictimai etimadın yüksəldilməsini, eləcə də qabaqcıl xarici təcrübənin tətbiqi və beynəlxalq peşəkar qurumların fəaliyyətində milli auditin iştirakının genişləndirilməsini, rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətlərini (konseptual əsasları), auditor kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsini, auditor xidməti bazarında tənzimləmə və təşkilin inkişaf istiqamətlərini, auditor fəaliyyətinin normativ hüquqi təminatının yaxşılaşdırılmasını və 2030-cu ilə qədər Azərbaycanda auditor fəaliyyətinin inkişafının konseptual istiqamətlərini özündə əks etdirir.

Bu konsepsiyanın məqsədi yalnız şəffaflıq, hesabatlılıq və audit sahəsində üzləşdiyimiz ciddi və bəzən də gözlənilmədən meydana çıxan çətinliklər və problemlərin həllinə reaksiya vermək yox, daha çox gələcəkdə yarana biləcək problemlərin qarşısını almaq üçün konseptual yanaşmanı təmin etməkdir. Başqa sözlə, biz qarşımıza statik tədbirlərin hazırlanmasını yox, dinamik, çevik və gələcəyə hesablanmış tövsiyə və proqramların müəyyən edilməsini məqsəd qoymuşuq.

Konsepsiyada ehtiva olunan əsas istiqamətlərin reallaşdırılması, ölkənin qanunvericilik aktlarına müvafiq dəyişikliklərin edilməsi, zəruri tənzimləyici aktların işlənib hazırlanması və nəşri, kompleks təşkilati, təhsil, maarifləndirmə, informasiya təminatı üzrə tədbirlərin həyata keçirilməsi vasitəsilə nəzərdə tutulur.

Azərbaycanda kölgə iqtisadiyyatının azaldılmasına dair Yol Xəritəsi Prezident İlham Əliyevin ölkədə kölgə iqtisadiyyatına qarşı mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması, ictimai nəzarətin gücləndirilməsi, korrupsiyaya qarşı kəsərli tədbirlərin həyata keçirilməsi və yeni dövrün çağırışlarını nəzərə alaraq nəzarətin beynəlxalq təcrübə əsasında yenidən qurulması üzrə göstəriş və tövsiyələrinin reallaşdırılması məqsədilə Auditorlar Palatası tərəfindən hazırlanmışdır. Yol Xəritəsində qabaqcıl beynəlxalq təcrübə, son dövrlər ölkəmizdə uğurla həyata keçirilən şəffaflıq strategiyasının nəticələri, 2019-cu ilin sentyabr ayında Bakıda keçirilmiş "Kölgə iqtisadiyyatına qarşı mübarizə - iqtisadi inkişafın mühüm amili kimi" beynəlxalq elmi-praktik konfransın iştirakçıları tərəfindən təklif olunan tövsiyələr nəzərə alınmışdır.

Bizim yubiley xalqımızın tarixi üçün əlamətdar bir dövrə - Ali Baş Komandanımızın cəsarətli və dərin düşünülmüş daxili və xarici siyasəti, xalqımızın birliyi və cəsur Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində torpaqlarımızın işğaldan azad olunmasını təmin edən şanlı qələbəmizin əldə olunduğu və ərazilərimizdə geniş bərpa işlərini nəzərdə tutan böyük qayıdış dövrünə təsadüf edir. Fürsətdən istifadə edərək bəyan etmək istəyirəm ki, tariximizin bu qürurlu səhifələrinin yazıldığı bir dönəmdə ölkə auditorları Azərbaycanın iqtisadi inkişafına daha səmərəli və şəffaf yolla çatmaq, investisiyaların və mülkiyyətçilərin mənafelərinin qorunması sahəsində üzərilərinə düşən vəzifələri bundan sonra da böyük məsuliyyətlə həll edəcəklər.

***Vahid NOVRUZOV,***
***Azərbaycan Respublikası***
***Auditorlar Palatasının sədri,***
***iqtisad elmləri doktoru, professor***

# "Yaşıl Marafon" layihəsi üzrə ağacəkmə aksiyaları uğurla davam edir

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində ölkə üzrə kütləvi ağacəkmə aksiyaları uğurla davam edir.





AZƏRTAC xəbər verir ki, aprelin 2-də IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Masallı, Yardımlı, Oğuz, Qəbələ, Şəmkir və Bərdə rayonlarında növbəti ağacəkmə aksiyaları keçirilib. Aksiyalar zamanı yerli könüllü gənclərin iştirakı ilə hər bir regionun torpaq-iqlim şəraitinə uyğun olmaqla 10 min müxtəlifcinsli ağac əkilib.

Layihənin əsas məqsədi yaşıllıq sahələrini artırmaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

Ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda iqlim dəyişmələri ilə bağlı təsirlərin minimuma endirilməsində əvəzsiz rolu olan yaşıllıqların artırılmasına xüsusi önəm verən IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ölkəmizin digər rayonlarında da genişmiqyaslı ağacəkmə tədbirlərini davam etdirmək niyyətindədir. Marafon müddətində ölkə üzrə 1 milyona yaxın ağac əkilməsini hədəfləyən layihə tərəfdaşları hər kəsi bu faydalı təşəbbüsə dəstək olmağa və təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

# Slovakiya nazirliyi ölkə parlamentinin Dağlıq Qarabağa dair qətnaməsi ilə bağlı açıqlama verib

Slovakiya Xarici və Avropa Məsələləri üzrə Nazirliyi aprelin 1-də bu ölkənin parlamenti tərəfindən "Dağlıq Qarabağ" başlığı altında qəbul olunmuş qətnamə ilə əlaqədar açıqlama verib.

AZƏRTAC xəbər verir ki, aprelin 2-də nazirliyin sözçüsü Juraj Tomaqanın Slovakiya Mətbuat Agentliyinə açıqlamasına əsasən yerli mətbuatda yayılan məqalədə sözügedən qətnamənin ölkə parlamenti deputatlarının Dağlıq Qarabağdakı əlverişsiz humanitar vəziyyət və hər iki tərəfdən günahsız insanların əziyyət çəkməsi ilə bağlı narahatlığının təzahürü olduğu bildirilir.

Slovakiya XİN sözçüsünün "Biz bütün tərəfləri 2020-ci il 9 noyabr tarixli atəşkəs razılaşmasına ciddi əməl etməyə çağırırıq" fikrinin ifadə olunduğu məqalədə, həmçinin ölkənin xarici işlər naziri İvan Korçokun bu yaxınlarda Azərbaycana səfərinə istinad olunur. Belə ki, Slovakiya xarici işlər nazirinin Azərbaycana səfəri zamanı ölkə rəhbərliyi ilə danışıqlarda səsləndirdiyi "münaqişənin dayanıqlı həlli üçün yeganə çıxış yolunun BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə hörmət etmək olduğu" fikri qeyd edilir.

Məqalədə Slovakiya Xarici və Avropa Məsələləri Nazirliyinə istinadla vurğulanır ki, uzunmüddətli həll yolu üçün əsas şərt "bu etnik baxımdan mürəkkəb bölgədə bütün etnik qrupların dinc yanaşı yaşaması üçün şərait yaradılmasından" ibarətdir.

# Naxçıvanda qoşunların komanda-qərargah təlimi keçirilib

"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən birləşmələrdə komanda-qərargah təlimi keçirilib.





Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimin birinci mərhələsində qoşunların müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi üçün birləşmə və hissələr həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb. Ərazidə qərargahlar tərəfindən müdafiə və hücum əməliyyatlarının planlaşdırılması hərbi qərar qəbuletmə prosedurlarına uyğun keçirilib. Praktiki fəaliyyətlərə cəlb edilmiş tabor taktiki qrupunun bölmələri şərti düşmənin həmləsini dəf edərək onun canlı qüvvəsinə, zirehli texnikasına atəş zərbələri endirməklə hücum edən bölmələr üçün əlverişli şərait yaradıblar.

Təlimin sonuncu mərhələsi qəbul edilmiş qərarların, aparılmış hesabatların reallığının, bölmə komandirləri tərəfindən fəaliyyətlərin Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində kompüterlər üzərində oynanılması ilə keçirilib. Kompüterlər vasitəsilə bölmə komandirləri ərazinin relyefindən istifadə etməklə düşmənə yaxınlaşma, manevr bölmələrinin atəş təminatı və yaranmış taktiki şəraitdə çevik qərar qəbuletmə bacarıqlarını təkmilləşdiriblər.

Təlimin sonunda fəaliyyətlərin təhlili aparılıb, çatışmazlıqlar qeyd edilib və qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanıb.

# Biz birlikdə güclüyük!

## Məhdudlaşdırıcı tədbirlərin tətbiq olunmaması üçün əhalinin peyvənd olunması olduqca vacibdir



"Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərini uğurla təşkil edən ölkələr sırasındadır. Əhalinin peyvənd olunması prosesi də kifayət qədər effektiv təşkil olunub".

Bunu AZƏRTAC-a Milli Məclisin Səhiyyə komitəsinin üzvü Soltan Məmmədov deyib. O qeyd edib ki, hazırda ölkədə 560 mindən çox insan koronavirusa qarşı peyvənd olunub ki, bu da MDB məkanında ən yaxşı göstəricidir. Deputat bildirib ki, Azərbaycan dövləti pandemiyanın ilk günlərindən əhalinin sağlamlığını maksimum dərəcədə qorumaq üçün bütün imkanlarını səfərbər edib.

Soltan Məmmədov indiyə qədər Azərbaycana bir milyon beş yüz minə yaxın peyvəndin gətirildiyini vurğulayaraq bu prosesin davam etdiyini diqqətə çatdırıb: "Bu ay ərzində ölkəmizə bir milyon iki yüz mindən çox peyvənd gətirilməsi gözlənilir. Avqust ayına qədər Azərbaycan 16 milyon peyvənd əldə edəcək. Bu, əhalinin əksər hissəsini peyvənd etməyə imkan verəcək. Kollektiv immunitetin yaranması üçün ölkə əhalisinin 60-70 faizi peyvənd olunmalıdır".

Milli Məclisin deputatı onu da qeyd edib ki, Azərbaycanın peyvənd strategiyası hazırlanarkən bir çox məqamlar, o cümlədən peyvəndlərin əldə olunması ilə bağlı mümkün çətinliklər də nəzərə alınıb. Alternativ variantlar nəzərdən keçirilib. "Bildiyiniz kimi, Azərbaycan həm COVAX platforması çərçivəsində, həm də ayrı-ayrı ölkələr, peyvənd istehsalçısı olan şirkətlərlə danışıqlar aparıb. Bu gün də proses dayanmayıb. Bütün mümkün variantlar diqqətlə öyrənilib və müvafiq dövlət qurumları, hökumət tərəfindən zəruri addımlar atılır. Bu baxımdan, hesab edirəm ki, bizim ölkəmizdə əhalinin peyvənd olunması ilə bağlı ciddi problem gözlənilmir".

Soltan Məmmədov vətəndaşların peyvəndin zəruriliyini düzgün qiymətləndirməsinin də vacib olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, yoluxucu xəstəliklərlə mübarizənin ən təsirli yolu məhz peyvəndlərin tətbiq olunmasıdır. Buna görə də hər kəs bu prosesə məsuliyyətlə yanaşmalı, peyvənd olunmaqdan çəkinməməlidir. Deputat bildirib ki, kollektiv immunitetin yaranması, məhdudlaşdırıcı tədbirlərin tətbiq olunmaması üçün əhalinin peyvənd olunması olduqca vacibdir.

## Koronavirusa 2392 nəfər yoluxub




Azərbaycan Respublikasında koronavirus infeksiyasından 1063 nəfər müalicə olunaraq sağalıb, 2392 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 268 min 714 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 240 min 870 nəfər müalicə olunaraq sağalıb, 3648 nəfər vəfat edib. Aktiv xəstə sayı 24196 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 916 min 745 test aparılıb. Dünənki test sayı isə 15585-dir.

## Paytaxtda koronavirusa ən yüksək yoluxma göstəricisi Binəqədidə qeydə alınıb

Bakı şəhəri üzrə yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma göstəriciləri açıqlanıb.

AZƏRTAC koronavirusinfo.az saytına istinadla xəbər verir ki, paytaxtın rayonları arasında ən yüksək yoluxma göstəricisi Binəqədi rayonunda qeydə alınıb. Belə ki, paytaxt üzrə yoluxma hallarının 14,9 faizi həmin rayonun payına düşür. Bakı şəhərinin digər rayonlarına gəlincə, yoluxma hallarının 13,3 faizi Xətai, 12,3 faizi Yasamal, 10,7 faizi Sabunçu, 8,3 faizi Nərimanov, 8,1 faizi Suraxanı, 8 faizi Nəsimi, 7 faizi Nizami, 6,9 faizi Xəzər, 5,1 faizi Səbail, 4,9 faizi Qaradağ, 0,5 faizi Pirallahı rayonlarında qeydə alınıb.

Qeyd edək ki, ölkəmizdə koronavirusa ən çox yoluxma faktı Bakı şəhərində müşahidə olunub. Belə ki, ümumi yoluxma hallarının 53,7 faizi paytaxtda qeydə alınıb.

## Vaksinasiya ən səmərəli mübarizə vasitəsi kimi özünü təsdiqləyir

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, Avropa regionu əhalisinin 10 faizi COVID-19-a qarşı vaksinin birinci dozasını və 4 faizi isə vaksinin hər iki dozasını alıb. Regionun bütün inkişaf etmiş ölkələrində vaksinləmə başlayıb. Bu proses gəlir səviyyəsi orta olan ölkələrin 80 faizini və gəlirləri aşağı səviyyədə olan ölkələrin 60 faizini əhatə edir. Avropada 10 dövlət vaksinlərin paylanması üzrə beynəlxalq COVAX layihəsi üzrə vaksin alıb.

Məlumat üçün bildirək ki, Pfizer və BioNTech ilə ortaq şəkildə hazırlanan peyvənd təsdiqlənən ilk COVID-19 peyvəndidir. Daha sonra Oxford-AstraZeneca, ABŞ-da hazırlanan Moderna, Çində istehsal olunan Sinovac və Sinopharm və Rusiyadan Sputnik V peyvəndləri tərəfindən hazırlanan peyvənd geniş istifadəyə verilib.

Azərbaycanda da yanvar ayının 18-dən tibb işçilərinin peyvəndlənməsi ilə koronavirusa qarşı peyvəndləməyə start verilib və bu proses bütün ölkə üzrə uğurla və sürətlə həyata keçirilir.

Avropa İttifaqından cəmi 1 ay sonra, Cənubi Qafqazda isə ilk dəfə olaraq vaksinasiya işlərinə start verən ölkəmiz öncədən 4 milyon doz vaksinin gətirilməsini təmin edib. Azərbaycan COVAX təşəbbüsünün üzvü kimi vaksin istehsal edən bir neçə şirkətlə də müqavilə imzalayıb.

Hazırda respublikamızda vaksinasiya milli peyvəndləmə strategiyasına uyğun olaraq, Çindən sifariş edilmiş "CoronaVac" peyvəndi vasitəsilə aparılır. "AztraZeneca" şirkətinə məxsus 432 min doza COVID-19 vaksin dərman vasitəsinin isə mayın sonuna qədər Azərbaycana idxalı nəzərdə tutulub.

Azərbaycan pandemiya ilə mübarizədə ilk günlərdən qabaqlayıcı tədbirlər görən azsaylı nümunəvi ölkələr sırasındadır. Koronavirusun ortaya çıxdığı ilk zamanlardan etibarən ona qarşı operativ şəkildə qabaqlayıcı tədbirlər həyata keçirilən ölkəmizdə dərhal səhiyyə sisteminin virusla mübarizəyə istiqamətləndirilməsi pandemiyanın fəsadlarının minimuma endirilməsində mühüm rol oynayıb. Qısa müddətdə 40 min çarpayı potensialı olan xəstəxanalar hazır vəziyyətə gətirilib, 13 modul tipli xəstəxana inşa edilib, gündə 20 min test keçirilə bilən 42 müasir laboratoriya fəaliyyətə başlayıb.

Ölkəmizdə yoluxmanın erkən aşkarlanması üçün xeyli sayda testin aparılması, koronavirusa yoluxmuş bütün xəstələrin xəstəxana şəraitində yüksək səviyyədə müalicə edilməsi və bu istiqamətdə görülən kompleks tədbirlər sağalanların sayını çoxaldıb. Virusa yoluxma dinamikası nəzərə alınaraq mərhələli şəkildə həyata keçirilən sərtləşdirmə və yumşaldılma tədbirləri öz bəhrəsini verib, COVID hər zaman nəzarətolunan səviyyədə saxlanılıb.



Azərbaycan dünyanı bürüyən pandemiya ilə yalnız ölkə daxilində deyil, qlobal müstəvidə mübarizə aparır, bu istiqamətdə bütün səylərini səfərbər edir. Respublikamız ÜST-ə 10 milyon dollar məbləğində könüllü ianə verib və bu vəsaitin 5 milyonu Qoşulmama Hərəkatına üzv olan kasıb ölkələrə ayrılıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının pandemiya ilə mübarizə mövzusunda dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının uğurla keçirilməsi, martın 23-də BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, münasib qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamənin qəbul edilməsi də ölkəmizin qlobal həmrəyliyin möhkəmlənməsinə verdiyi uğurlu töhfələrdən biridir.

Dövlətimiz dünyanın ortaq bəlası ilə hərtərəfli mübarizə aparır və bu istiqamətdə ardıcıl və düzgün qərarlar verir. Yuxarıda vurğulandığı kimi, dünyada koronavirusun yeni ştammlarının yayıldığı, eləcə də ölkəmizdə son zamanlar virusayoluxma dinamikasında artım yaşadığımız bu həssas dövrdə də bir sıra ehtiyat tədbirləri görməyə qərar verilib. Aprelin 5-dən etibarən bir neçə şəhər və rayonda dərslərin ənənəvi üsuldan distant qaydaya keçirilməsi də bu qəbil tədbirlərin tərkib hissəsidir.

Pandemiya ilə mübarizənin bu məqamında da vətəndaşların ehtiyatlı davranması, sosial məsafəyə, maska taxılmasına məsuliyyətlə yanaşması vacibdir. Bu bir reallıqdır ki, koronavirusa qarşı ehtiyat tədbirlərinə nə qədər çox əməl etsək, normal həyata qayıdışımız da bir o qədər sürətli baş verəcək.

Əminik ki, vətəndaşların şəxsi məsuliyyəti, koronavirus infeksiyasının bütün ştammlarına qarşı ən effektli qoruyucu mexanizm olan vaksinasiyanın aparılması tez bir zamanda ölkəmizdə COVID bəlasının nəfəsini kəsəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Hazırkı dövrədək ölkəmizdə vurulan vaksinlərin sayı 924 min 813-ə bərabərdir

Aprelin 3-də Azərbaycan Respublikasında 35 min 780 nəfər yeni koronavirus (COVID-19) infeksiyasına qarşı vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 12 min 469, ikinci mərhələ üzrə peyvənd vurulanların sayı 23 min 311 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksinlərin sayı 924 min 813-ə bərabərdir. Birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 582 min 463, ikinci mərhələ üzrə peyvənd vurulanların sayı 342 min 350 nəfərdir.




## Azərbaycan COVID-19 əleyhinə peyvəndləmənin tam sürətlə davam etdiyi ölkələr arasındadır

"Son günlər ölkəmizdə yeni növ koronavirus (COVID-19) infeksiyası yenidən alovlanmağa başlayıb. Bunun başlıca səbəbi bəzi vətəndaşların məhdudiyyətlərə məhəl qoymayaraq gizli toplantılar keçirməsi, tibbi maskadan düzgün istifadə edilməməsi, ictimai-iaşə müəssisələrində kütləvi toplanma hallarının olmasıdır. Təəssüf ki, bu qədər yoluxanların və virus səbəbindən həyatını itirənlərin olmasına baxmayaraq, hələ də koronavirusa inanmayanlar, dırnaqarası baxanlar, "adi qripdir, öz təsirini itirib, ətrafımızda tanışlar xəstələndi, onlara nəsə olmadı, bizə də olmayacaq" kimi düşünənlər var. Bununla yanaşı, bəzi vətəndaşlar vaksinlərin effektivliyinə və təhlükəsizliyinə şübhə ilə yanaşırlar. Tibbi savadları olmayan insanlar sosial şəbəkələrdə vaksinlər, onların təsirləri haqqında düzgün olmayan informasiyalar yayırlar. Bəzi vətəndaşlar isə onlara inanıb peyvəndləmədən çəkinirlər. Hər kəs bilməlidir ki, COVID-dən qurtulmağın yeganə yolu vaksinasiya prosesidir. Mən və ailə üzvlərim vaksinasiyanın hər iki dozasını vurdurmuşuq və səhhətimizdə heç bir problem yoxdur. Bilməliyik ki, peyvəndləmə nə qədər geniş vüsət alsa, yoluxma sayları da bir o qədər azala bilər. Peyvənd vurulması koronavirusa yoluxmamağa 100 faiz təminat verməsə də, ağırlaşma və ölüm hallarının qarşısını alır. Buna görə də hər kəs həm qaydalara riayət edərək, həm də vaksinasiyada fəal iştirak edərək pandemiyanın aradan qalxmasında, normal həyata qayıtmaqda pay sahibi ola bilər".

Bu fikirləri AZƏRTAC-a Azərbaycan Tibb Universitetinin Travmatologiya və ortopediya kafedrasının əməkdaşı, Tədris Cərrahiyyə Klinikasında fizioterapiya və reabilitasiya şöbəsinin müdiri Nurlana Əliyeva bildirib.



"Cənubi Qafqazda ilk olaraq vaksinasiya işlərinə start verən Azərbaycan COVID-19 əleyhinə peyvəndləmənin tam sürətlə davam etdiyi ölkələr arasındadır. Peyvəndləmə səviyyəsinə görə, MDB ölkələri arasında liderlərdənik. Son məlumatlara görə, Azərbaycanda 570 minə yaxın vətəndaşın ilk doza ilə peyvənd olunduğu bildirilir. Bu da əhalinin təxminən 6 faizə yaxın hissəsini təşkil edir. Vətəndaşlardan xahiş edirəm ki, bu alovun qarşısını almaq üçün insanlar öz öhdələrinə düşən vəzifələri yerinə yetirsinlər. Bu bəladan qurtulmaq vəzifəsi təkcə dövlətin, həkimlərin üzərinə düşməməlidir. "Gözəgörünməz" düşmənlə mübarizədə hər kəs birlik nümayiş etdirməlidir. Ona görə də vətəndaşları vaksinasiyada aktiv iştirak etməyə və üç qızıl qaydaya - maska istifadəsinə, sosial məsafə saxlanılmasına, gigiyena qaydalarına əməl edilməsinə - riayət etməyə səsləyirəm", - deyə N.Əliyeva bildirib.

## İcbari tibbi sığortadan ölkənin bütün əhalisi yararlanacaq




*Əvvəli 1-ci səh.*

Xəstəxanalar pandemiyanın qarşısının alınması istiqamətində ixtisaslaşdırıldığından, ölkə əhalisinin icbari tibbi sığorta paketindən istifadəsində müəyyən çətinliklər yaratdı. Lakin məsələnin ciddiliyi nəzərə alınaraq pilot layihələr tətbiq edildi.

Yaxşıdır ki, artıq 1 aprel 2021-ci il tarixdən bütün ölkə üzrə icbari tibbi sığortanın tətbiqinə başlanıb. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin departament rəhbəri Aynurə Əhmədova bildirib ki, əslində, ötən bir il ərzində səhiyyə sistemi, o cümlədən də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi bütün resusrsları ilə birlikdə diqqəti koronavirusla mübarizəyə yönəltdi: "Belə ki, agentliklə TƏBİB xəstəxana və poliklinikalarda profilaktika işinin keyfiyyətli şəkildə təmin olunması məqsədilə tibb müəssisələrinin zəruri avadanlıqlarla, onların maddi-texniki bazasının təmin edilməsi ilə məşğul oldu. Əlavə 100 ədəd ambulansların alınmasını təmin etdi. Eyni zamanda koronavirus testlərinin keçirilməsinə görə insanlara SMS-lərin göndərilməsi üçün elektron, eləcə də vaksinasiya prosesində iştirak edənlərə randemus sistemi yaradıldı. Bir sözlə, ötən bir il ərzində bütün qüvvələr koronavirus pandemiyasına qarşı mübarizəyə səfərbər edildi. Bu səbəbdən də icbari tibbi sığortanın tətbiqinə əsasən bu ilin yanvar ayından başlanıldı". Əslində, regionlarda əhali icbari tibbi sığortadan yararlanmağa başlayıb. İcbari tibbi sığorta səhiyyədə yeni sistem olduğu üçün agentlikdə üç istiqamətdə fəaliyyət göstərən işçi qrupu yaradılıb. Birinci istiqamət xidmətlərin xəstəxanalardan poliklinikalara keçirilməsidir: "...Çünki stasionarda tibbi xidmətin göstərilməsi beynəlxalq təcrübədə mövcud deyil. Beynəlxalq təcrübədə ambulator xidmətlər ambulatoriyada həyata keçirilir. Hazırda stasionarda olan həmin həkim heyətinin poliklinikalara köçürülməsi prosesi davam etdirilir. İkincisi təcili və təxirəsalınmaz tibbi xidmətin keyfiyyətinin artırılması ilə bağlıdır. Bunun üçün də xəstəxanaların qəbul və qeydiyyat şöbələrinin bazalarında təcili yardım sistemi təşkil olunur, bu adda orada şöbələr yaradılır və işlər aparılır. Üçüncüsü isə tibb müəssisələrinin informasiya və kommunikasiya infrastrukturunun qurulması ilə bağlıdır ki, orada da proqram təminatı yaradılır. İşçilərə həmin proqram təminatı qaydaları ilə əlaqədar təlimlər keçirilir. Bu proqram təminatı vasitəsilə müraciət edən hər bir pasiyent haqqında məlumatlar elektronlaşdırılacaq. Tutalım, pasiyent xəstəxanaya müraciət edir. Onun müraciət etdiyi həkim, aparılan müayinələr və s. icbari tibbi sığorta sistemində elektronlaşmalıdır..."

Maraqlıdır, bu proseslər dövlət tibb müəssisələrində həyata keçirilirsə, bəs problem özəl sektorda öz həllini necə tapacaq? Aynurə Əhmədova bununla bağlı fikirlərini bölüşərkən xüsusi olaraq qeyd etdi ki, icbari tibbi sığorta sistemində qayda bu cürdür: xidmətlər zərfinə daxil olan, lakin dövlət tibb müəssisəsində hər hansı bir səbəbdən göstərilməsi mümkün olmayan tibbi xidmətin özəl tibb müəssisələrinə, o cümlədən qeyri-dövlət tibb müəssisələrinə göndərilməsi üçün TƏBİB-in nəzdindəki dövlət tibb müəssisəsi tərəfindən göndəriş vərəqəsi verilir ki, onun da etibarlılıq müddəti 10 gündür.

İcbari tibbi sığorta haqlarının ödənilməsi də əhalinin maraq dairəsinə daxil olan məsələlərdəndir: sığorta haqqının neçə faizi işçi və işəgötürən tərəfindən ödənilir? Buna aydınlıq gətirən departament rəhbəri xüsusi olaraq vurğuladı ki, sığorta ödəmələri dövlət və qeyri-dövlət tibb müəssisələrində bir qədər fərqlidir. Dövlət və neft sektorunda çalışanlar, işə götürənlər, işçilər aylıq hesablanmış əməyin ödəniş fondunun 8 min manatadək olan hissəsindən 2, bundan yuxarı olan hissəsindən isə 0,5 faiz icbari tibbi sığorta haqqı ödəyirlər. Qeyri-dövlət, qeyri-neft sektorunda çalışanlara isə birillik güzəşt tətbiq olunur. Yəni onlar aylıq hesablanmış əməyin ödənilməsi fondunun 8 min manatadək olan hissəsindən 1, bundan yüksək hissəsindən isə 0,5 faiz sığorta haqqı ödəyirlər. Bu güzəştin müddəti isə bir ildir. Yəni 2022-ci ildən etibarən onlar da sığorta haqqını dövlət və neft sektorunda çalışanlar kimi ödəyəcəklər: "3-cü istiqamət mülki-hüquqi müqavilələri yerinə yetirən fiziki şəxslərlə bağlıdır. Bu şəxslərin icbari tibbi sığortası gəlirlərin 8 min manatadək olan hissəsindən 2, ondan yuxarı hissəsindən isə 1 faiz tutulur. 4-cü istiqamət isə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sığortası ilə bağlıdır. Bu şəxslər ölkədə aylıq minimum əməkhaqqının 4 faizi məbləğində icbari tibbi sığorta ödəyirlər. Bu isə o deməkdir ki, onlar hazırda aylıq olaraq 10 manat icbari tibbi sığorta haqqı ödəyirlər".

Daha bir maraqlı məqam da kimlərin bu güzəştlərdən yararlanmasıdır. Buna aydınlıq gətirən agentliyin rəsmisinin sözlərinə görə, bu xidmətdən kənarda qalan olmayacaq. Qəbul edilən qanuna görə, icbari tibbi sığorta haqqı ödəməyənlər də bu xidmətlər zərfindən istifadə hüququna malikdirlər. Qanunda göstərilir ki, heç bir yerdə əmək, mülki-müqavilə ilə işləməyən, sahibkarlıq fəailiyyəti ilə məşğul olmayan şəxslər 2024-cü ilin yanvar ayınadək xidmətlərdən istifadə hüququna malikdir. Bu da onu göstərir ki, işləyib-işləməsindən asılı olmayaraq, ölkə vətəndaşları icbari tibbi sığorta xidmətlərindən istifadə edəcəklər.

Məsələnin daha sadə dillə ifadəsinə gəlincə, bu sahənin mütəxəssislərinin tövsiyələri də maraqlı və cəlbedicidir. Məsələn, təcili və təxirəsalınmaz vəziyyət olmadıqda ailə həkiminə müraciət edilməlidir. Ailə həkimləri tibb məntəqələrində, poliklinika və tibb mərkəzlərində çalışırlar. Onların səlahiyyəti var ki, müraciət edən hər bir kəsi lazımi ünvanlara, yəni ixtisas həkiminə yönləndirmək üçün göndəriş vərəqəsi versinlər.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## Qax şəhərində koronavirus əleyhinə dezinfeksiya işləri icra olunub





COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Qax rayonunda tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər davam etdirilir.

Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tapşırıqlarına uyğun olaraq, koronavirus infeksiyasının yarada biləcəyi təhlükənin qarşısını almaq üçün Qax şəhərində, eləcə də rayonun kəndlərində mütəmadi olaraq zəruri tədbirlər görülür. AZƏRTAC xəbər verir ki, aprelin 3-də Qax şəhərində növbəti kütləvi dezinfeksiya işləri həyata keçirilib. Şəhərin prospekt və küçələri, səkilər, park və meydanlar, yaşayış məhəllələri dezinfeksiyaedici maddələrlə yuyulub, çoxmənzilli binaların giriş blokları və pilləkənlər, ticarət, iaşə və digər obyektlərin, apteklərin giriş-çıxışları, bankomatların yerləşdiyi ərazilər təkrar dezinfeksiya olunub.

Eyni zamanda rayon icra hakimiyyəti yanında yaradılan qərargahın üzvlərindən və polis əməkdaşlarından ibarət mobil qruplar tərəfindən rayon ərazisində xüsusi karantin rejimi qaydalarının təmin olunması üçün gündəlik olaraq nəzarət tədbirləri həyata keçirilir.

## Abşeronda COVID-19 infeksiyası ilə bağlı reydlər keçirilir

Abşeron rayonunda COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə mütəmadi olaraq maarifləndirmə, təbliğat tədbirləri görülür. Koronavirus əleyhinə vaksinasiya prosesi ilə bağlı sakinlər ətraflı məlumatlandırılır.

AZƏRTAC xəbər verir ki, Abşeron Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın, YAP rayon təşkilatının, Vətən Müharibəsi Əlillərinə Kömək İctimai Birliyinin Abşeron nümayəndəliyinin üzvlərinin iştirakı ilə Xırdalan şəhərində fəaliyyət göstərən obyektlərə, eləcə də məktəblərə baxış keçirilib, sakinlərlə maarifləndirici söhbətlər aparılıb.

Növbəti reyd zamanı satıcıların, istehlakçıların tibbi maskalardan istifadəsinin, sosial məsafənin gözlənilməsinin, ticarət obyektlərinin dezinfeksiyaedici vasitələrlə təmin olunmasının zəruriliyi bir daha sahibkarların diqqətinə çatdırılıb və karantin qaydalarının pozulması hallarına yol veriləcəyi təqdirdə qanunvericiliyə uyğun olaraq ciddi tədbirlərin görüləcəyi barədə məlumatlandırılıblar.



Aparılan monitorinq zamanı fəaliyyət göstərən əksər iaşə obyektlərində Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına uyğun şəraitin yaradılması, qaydalara ümumən düzgün riayət edilməsi müşahidə olunub. Aşkar edilən nöqsanlar isə yerindəcə aradan qaldırılıb, sahibkarlıq subyektlərinin vəzifəli şəxsləri zəruri sosial davranış və sanitar-epidemioloji normalarla bağlı məlumatlandırılıblar.

Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə rayonda reydlər və maarifləndirmə tədbirləri bundan sonra da davam etdiriləcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## MUSİAD Beynəlxalq Biznes Forumunu Azərbaycanda keçirəcək

Bakıda keçirilmiş Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinə dair "dəyirmi masa" çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MUSİAD) prezidenti Abdurrahman Kaan ilə görüşüb.

Görüşdə agentliyin Türkiyənin müvafiq qurumları, o cümlədən MUSİAD ilə əməkdaşlığı diqqətə çatdırılıb, əlaqələrin inkişaf etdiyi vurğulanıb. Qeyd olunub ki, 2020-ci il noyabrın 18-21-də İstanbulda keçirilmiş "MUSİAD Expo 2020" sərgisində KOBİA-nın təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır" stendi də nümayiş edilib. KOBİA yanında İctimai Şurada MUSİAD-ın Azərbaycan nümayəndəliyi də təmsil olunur. Əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsinin aparıldığı görüşdə MUSİAD tərəfindən təşkil olunan Beynəlxalq Biznes Forumunun (İBF) Azərbaycanda keçirilməsi ilə bağlı razılıq əldə edilib.

## Yaralanmış hərbçilərin əyani müayinələr əsasında əlilliyinin qiymətləndirilməsi sürətlənir



Ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərkən xəsarət almış hərbi qulluqçuların əlilliyinin səyyar formada əyani müayinələr aparılmaqla operativ qiymətləndirilməsi prosesi davam edir.

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-ekspertlərindən ibarət işçi qrupu Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan qurumların nümayəndələri ilə birgə hərbi qulluqçuların səyyar formada əyani müayinələrini həyata keçirir.

Yaralı hərbi qulluqçular paytaxt və regionlar üzrə yaşadıqları ünvanlarda, yaxud tibb müəssisələrində ziyarət edilməklə, onlarla bağlı müayinə aktları tərtib edilir. Hər birinə dair foto və videogörüntülər toplanır.

Hərbi qulluqçuların xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən şəhadətnamələr təqdim olunur. Bundan sonra Səhiyyə Nazirliyinin və digər aidiyyəti qurumların tibb müəssisələri tərəfindən göndəriş elektron sistemə daxil edilir.

Yekun mərhələ olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin göndərişlərə çevik şəkildə baxılaraq əlilliyin qanunvericiliyə uyğun operativ qiymətləndirilməsi aparılır. Artıq 250-dən çox hərbçiyə əlillik təyinatı aparılıb və proses davam edir.

## Enerji Məsələlərini Tənzimləmə Agentliyi filiallarının fəaliyyəti işğaldan azad olunmuş əraziləri də əhatə edəcək

"Enerji Məsələlərini Tənzimləmə Agentliyinin filiallarının əsasnamələrinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Energetika Nazirliyinin müvafiq əmrində dəyişikliklər edilib. Yeni əmrə əsasən, agentliyin (AERA) Gəncə, Mingəçevir və İmişli filiallarının əsasnamələrində dəyişiklik edilərək onların fəaliyyət əraziləri genişləndirilib.

AERA-dan AZƏRTAC-a bildirilib ki, əsasnamələrə edilmiş dəyişikliklərdə məqsəd 2020-ci ildə Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərdə enerji məsələlərinin tənzimlənməsi və bununla əlaqədar AERA-nın filiallarının funksionallığının yeni fəaliyyət əraziləri nəzərə alınmaqla təkmilləşdirilməsidir.

Dəyişikliklərə əsasən, agentliyin Gəncə filialının fəaliyyət ərazisinə işğaldan azad edilmiş Kəlbəcər rayonu, Mingəçevir filialının fəaliyyət ərazisinə işğaldan azad edilmiş Ağdam rayonu, İmişli filialının fəaliyyət ərazisinə işğaldan azad edilmiş Şuşa şəhəri, Füzuli, Cəbrayıl, Xocavənd, Xocalı, Zəngilan, Qubadlı və Laçın rayonları daxil edilib.

Dəyişikliklər nəticəsində işğaldan azad edilmiş bütün ərazilərdə AERA-nın səmərəli fəaliyyəti təmin ediləcək, o cümlədən energetika sahəsində dövlət nəzarəti müvafiq filiallar vasitəsilə həyata keçiriləcək.

## Yaz-tarla işləri canlanır



Yazın gəlişi ilə torpaq oyanmışdır. Bərəkətli çöllərdə həyat qaynayır. Bolluq həvəsli Ağcabədi kəndlisi taleyini bağladığı torpaqla görüşə indi fərqli bir ovqatla, yüksək əhvali-ruhiyyə ilə gedir. Bu, 44 günlük parlaq Qarabağ zəfəri ilə bağlıdır.

Azərbaycan əsgərinin qəhrəmanlığı, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi, böyük sərkərdə qüdrəti ilə Qarabağ işğaldan azad olunmuş, Ermənistan ordusu darmadağın edilmişdir. Xalqımızın qürurverici parlaq qələbənin sevincini yaşadığı bu günlərdə rayonumuzun təsərrüfatlarında cari ilin yaz-tarla işlərinə gerçək bayram əhvali-ruhiyyəsi ilə start verilmişdir.

Göz işlədikcə uzanan taxıl zəmilərində yaz becərilməsi yüksək aqrotexniki qaydalar əsasında davam edir. Məhsuldarlığı yüksəltmək üçün zəmilərə yemləmə gübrəsi verilir, bunun ardınca sahələrə su vurulur. Eyni zamanda çiyid səpininə hazırlıq gedir. Səpin və becərmə texnikası keyfiyyətlə təmir edilib hazır vəziyyətə gətirilir. Rayonda heyvandarlığın yem bazasını möhkəmləndirmək üçün yonca əkini sahələri genişləndirilmişdir. Onu da qeyd edim ki, yoncaların yaz suvarılması artıq başa çatmışdır.

Ağcabədinin istər əkinçilik, istərsə də heyvandarlıq sahəsində qazandığı nailiyyətlərdə rayon suvarma sistemləri idarəsinin kollektivinin də sanballı payı vardır. Keçən təsərrüfat ilində pambıq, taxıl, yem bitkiləri, bostan, tərəvəz məhsulları istehsalında böyük artıma nail olunmuşdur. Kollektivin gərgin əməyinin nəticəsidir ki, bir hektar da olsun əkin sahəsi sudan korluq çəkməmişdir.

İdarə cari ildə əkin sahələrinin suvarma suyuna olan ehtiyacını daha dolğun şəkildə ödəmək üçün zəruri tədbirləri davam etdirir. Rayonun Rəncbərlər kəndi ərazisində yerləşən nasos stansiyasının təzyiqli boru kəmərinin 3000 metr hissəsi yeni boru ilə əvəz edilmişdir. Muğanlı nasos stansiyasında da nasos və avadanlıqlar, eyni zamanda 3 km məsafədə boru xətti təmir olunmuşdur. Hindarx, Sovxoz-1, Hüsülü-4, Hacıbədəlli-4, Çələbədin-2, Sarıcalı, Qiyamədinli-4, nasos stansiyalarında da zəruri təmir-bərpa işləri görülmüş, Şənlik və Pərioğlular kənd ərazisini suvarma suyu ilə təmin edən R-16-1 kanalına 15 kilometr məsafədə beton üzlük çəkilmişdir.

Rayon ərazisində pambıq və digər kənd təsərrüfatı bitkilərinin suvarılmasını yaxşılaşdırmaq məqsədilə mövcud kanallar vaxtaşırı lildən təmizlənərək onların suötürücülük qabiliyyətinin daim yüksək səviyyədə olması təmin edilir. Ümumiyyətlə, idarənin kollektivi üzərinə düşən vəzifəni layiqincə yerinə yetirmək, əkin sahələrinin suvarma suyuna olan tələbatını etibarlı şəkildə ödəmək üçün səmərəli axtarışları davam etdirir, mövcud imkan və ehtiyat mənbələrindən səmərəli istifadə etməyə çalışır. Rayonun 10 kəndini suvarma suyu ilə təmin edən "Xan qızı" kanalında çox zaman su çatışmazlığı olduğuna görə Yuxarı Qarabağ kanalından saniyədə 3 kubmetr su götürmə gücünə malik yeni nasos stansiyasının layihəsi hazırlanmışdır. Yeri gəlmişkən qeyd edək ki, böyük potensiala malik Haramı adlanan ərazidəki "Qara su" çökəkliyində Mil kanalından qidalana bilən su anbarının yaradılması barədə təklif irəli sürülmüşdür. Kollektiv inanır ki, bu təklifləri də diqqətdən kənarda qalmayacaq.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# "Cənub qaz dəhlizi" tam sistem kimi fəaliyyət göstərir

## Azərbaycandan mavi yanacaq ixracı getdikcə artır






*Əvvəli 1-ci səh.*

Hazırda üç ötürücü sistem operatoru olan TAP AG, "Snam Rete Gas" və "DESFA" aparılan bazar sınaqları üzrə məcburi təklif mərhələsinin cari ilin iyul ayında baş tutacağını elan ediblər. Hər üç operator son bazar şərtlərini nəzərə alaraq enerji bazarlarının bərpa olunmasına daha çox vaxt ayırmaq istəyir. TAP konsorsiumunun bazar sınaqlarını keçirməkdə məqsədi təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməkdir. Bu, sonrakı mərhələdə kəmərin genişləndirilməsi imkanlarını araşdırmağa kömək göstərəcək.

Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatının məlumatı isə qardaş ölkənin Azərbaycandan qaz idxalını artırması barədədir. Belə ki, bu ilin yanvar ayında Türkiyə ölkəmizdən 1,11 milyard kubmetrdən çox təbii qaz idxal edib. Bu, əvvəlki ilin eyni ayı ilə müqayisədə 18,4 faiz çoxdur. Azərbaycan cari ilin yanvarında Türkiyənin ən çox qaz idxal etdiyi ölkələr sırasında ikinci yerdə qərarlaşıb. Qeyd edək ki, həmin ay Türkiyəyə 2,67 milyard kubmetr qaz ixrac etməklə birinci sırada Rusiya olub.

**TAP (Trans-Adriatik Qaz Boru Kəməri) keçən il dekabrın sonunda istifadəyə verilib və həmin vaxtdan indiyədək 1 milyard kubmetr Azərbaycan qazını Yunanıstanın Kipoi bölgəsindəki stansiyadan Avropaya nəql edib. TAP-la ixracın ahəngdarlığı "Cənub qaz dəhlizi"nin tam sistem kimi fəaliyyət göstərməsi deməkdir.**

Türkiyə Azərbaycan təbii qazını BTƏ (Bakı-Tbilisi-Ərzurum kəməri) və TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) idxal edir. Türkiyəyə qədər isə mavi yanacağı Azərbaycanın və Gürcüstanın ərazisindən keçən CQBK (Cənubi Qafqaz Boru Kəməri) çatdırır. Ötən il CQBK-nın sutkalıq orta ötürücülük gücü 33,8 milyon kubmetr olub. TANAP qazı genişləndirilmiş CQBK-dan qəbul edir.

CQBK-nın sərmayədarları BP (28,8 faiz), TPAO (19 faiz), AzSCP (10 faiz), "Cənub Qaz Dəhlizi Midstrim" (6,7 faiz), PETRONAS (15,5 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz) şirkətləridir.

CQBK, TANAP və TAP 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin bir-birinə bağlanan üç həlqəsidir. Bu dəhliz Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" yatağından hasil olunan təbii qazı Avropayadək nəql edir.

CQBK 2006-cı ilin sonlarında istismara verilib. Genişləndirilmiş CQBK isə kommersiya qaz həcmlərinin TANAP-a təhvil verilməsinə 2018-ci ilin iyununda başlayıb. TANAP-la Türkiyəyə qazın nəqlinə başlanmasının birinci ili 2 milyard kubmetr qaz tədarük edilib. Ticari əməliyyatların ikinci ili keçən il iyunun 30-da bitib və həmin tarixə bu xətlə nəql edilən Azərbaycan qazının həcmi 6 milyard kubmetrə çatıb. İstismara veriləndən bu vaxtadək TANAP-la Türkiyəyə 10 milyard kubmetrədək qaz ixrac edilib. Sonrakı dövrdə isə bu boru kəməri ilə ildə 6 milyard kubmetr qaz nəql olunacaq.

TANAP 2019-cu il iyulun 1-dən etibarən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Kəmərin ikinci fazası həmin il noyabrın 30-da istifadəyə verilib.

TANAP-ın tam gücü ilə nəqlə başlayacağı 2022-ci ildən sonra hər il 1,5 milyard dollardan çox nəqletmə gəliri əldə olunacaq. Xatırladaq ki, TANAP-ın səhmlərinin 51 faizi "Cənub Qaz Dəhlizi" QSC-yə, 7 faizi STEAŞ-a, 30 faizi BOTAŞ-a, 12 faizi BP-yə məxsusdur.

TAP "Cənub qaz dəhlizi"nin Avropa qolu, Azərbaycandan Avropa bazarlarına ildə 10 milyard kubmetr yeni qaz tədarükünü həyata keçirəcək qovşaq layihəsidir. Kəmər İtaliyanın "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşir. TAP sistemi keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir. Kəmərin potensialı onun ötürücülük gücünü iki dəfə artıraraq ildə 20 milyard kubmetrə çatdırmağa imkan verir.

Hazırda Azərbaycan təbii qazını İtaliya və Bolqarıstana nəql edən bu kəmər ötən il noyabrın 15-dən istismara verilib. Dekabrın 31-dən isə kommersiya təbii qazının nəqlinə başlanılıb. TAP-ın səhmdarları BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enags" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

Beləliklə, kəmərin Yunanıstan, Albaniya və İtaliyadakı çıxışları Azərbaycan qazının geniş Avropa bazarlarına tədarükü üçün çoxsaylı imkanlar açır. Bu, Avropa üçün strateji və iqtisadi əhəmiyyət daşıyan və yeni təbii qaz mənbəyinə etibarlı çıxışı təmin edən xətdir. Kəmər Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində, təchizatın diversifikasiyasında, həmçinin karbon emissiyasının azaldılmasında mühüm rol oynayır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Fermerlər payızlıq taxıl əkinlərinə qulluq işləri ilə bağlı maarifləndiriliblər

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin tabeliyindəki Şəki Regional Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən şimal-qərb bölgəsi rayonlarında fəaliyyət göstərən taxılçı fermerlər üçün maarifləndirici təlimlər davam edir.

Növbəti təlimlər Şəki rayonunun Cumakənd və Küdürlü kəndlərində "Payızlıq taxıl əkinlərində xəstəlik və zərərvericilərə, alaq otlarına qarşı mübarizə tədbirləri, təhlükəsizlik qaydalarının təşkili" mövzusunda keçirilib.

Regional mərkəzdən AZƏRTAC-a bildirilib ki, payızlıq əkin sahələrində keçirilən təlimlər zamanı fermerlər alaq otlarına qarşı mübarizə tədbirlərinin aparılmasının vacibliyi, herbisidlərin işçi məhlulunun hazırlanması, hər hektara məsarif norması və istifadə edilən preparatlar, bu zaman təhlükəsizlik qaydalarına əməl olunması barədə ətraflı məlumatlandırılıblar.

Fermerlərə həmçinin pestisidlərlə işləmə qaydaları, xəstəlik və zərərvericilər əleyhinə aparılan mübarizə tədbirləri zamanı iqtisadi ziyanlıq həddinin nəzərə alınması və digər məsələlər barədə də lazımi məsləhətlər verilib.

# Abadlıq yollardan başlayır

Bu gün ölkəmizdə həyata keçirilən əsas infrastruktur layihələrindən biri də yolların abadlaşdırılmasıdır. Quba rayonunda da çoxsaylı yol infrastrukturu layihələri həyata keçirilir. İstər respublika, istərsə də yerli əhəmiyyətli avtomobil yolları əsaslı təmir olunur, körpülər tikilir, kənd və kəndlərarası yollar yenidən qurulur.



Sovet dönəmində uzun illər ucqar dağlıq ərazilərdə yollar bərbad vəziyyətdə idi. Hətta bəzi kəndlər yolsuzluq üzündən boşalır, qalan əhalininsə mərkəzlə əlaqəsi zəifləyirdi, baxmayaraq ki, elə o vaxtlar da Quba Azərbaycanın turizm regionu idi, tarixi qədimlərə gedib çatan kəndlər, əsrarəngiz təbiət, flora və fauna bu yerlərin vizit kartı sayılırdı.

Hazırda bu sahədə vəziyyət tamam fərqlidir. 10 kəndi birləşdirən 23 kilometrlik Hacıhüseynli-Gənclər qəsəbəsi avtomobil yolu və bu yola birləşən digər yollar təmir olunub, Quba-Xaçmaz avtomobil yolu yenidən qurulub. Bakı-Quba avtomobil yolunun Alekseyevka kəndi ərazisindən keçən hissəsində, İdrisiqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq yolunun ətrafında isə yaşıllıq zolaqları salınıb.

Qubanın əsas yol xətlərindən biri də Qonaqkənd istiqamətindədir. Vaxtilə böyük yaşayış massivi olan Qonaqkəndin geriləməsinin səbəblərindən biri məhz yolla bağlı olub. Keçilməz kənd yolu ərazidə yaşayanların başqa yerlərə köçməsinə səbəb olmuş və o üzdən də həmin istiqamətdə bir çox kəndlər boşalmaq təhlükəsi ilə üzləşmişdi.

Nəhayət, ölkə başçısının diqqəti və qayğıkeşliyi nəticəsində 68 min nəfər əhalinin yaşadığı 66 yaşayış məntəqəsini birləşdirən 46 kilometrlik Quba-Qonaqkənd avtomobil yolu yenidən çəkildi. Yol keçdiyi ərazinin relyefinə uyğun olaraq III və IV texniki dərəcəlidir. Torpaq yatağı 12 və 10, hərəkət hissəsi isə 7 və 6 metrdir. Layihə çərçivəsində yolun 35-ci, 36-cı və 41-ci kilometrlik hissəsində kiçik dağ çayları üzərində hər birinin uzunluğu 26 və 27 metr olan 1 aşırımlı 3 körpü, yolun 43-cü və 46-cı kilometrlik hissəsində Babaçay və Cimiçay üzərində yeni körpülər inşa edilib. Babaçay üzərindən salınan körpünün uzunluğu 126, Cimiçay üzərindəki körpünün uzunluğu isə 80 metrdir. Bundan başqa, yol "Təngə dərəsi" kimi tanınan ərazidə qayaların çapılması hesabına 4 metrdən 10 metrə kimi genişləndirilib.

Alpan-Susay-Xınalıq avtomobil yolunda da işlər yekunlaşıb. Susay kəndinə qədər olan hissə artıq tam təmir edilib, Xınalıq istiqamətində isə işlər davam edir. Bundan başqa, Mirzəqışlaq kəndi istiqamətində, Dəvədabanı yaşayış massivində də təmir işləri görülüb. Həmçinin rayon mərkəzində müvafiq hərəkət yolları, ara yollar asfaltlanıb. Mərkəzi bazarın ətrafında da təmir işləri aparılmışdır. Rayonda böyük yaşayış massivi olan 32-33-cü məhəllələrdə də yollar təmir edilmişdir. Onu da qeyd edək ki, adsız yeni küçələrə İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərib şəhid olanların adlarının verilməsi təklif edilmişdir və hazırda bu təklifin reallaşması istiqamətində işlər aparılır.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*



Bakı Dövlət Universitetinin ixtisaslı jurnalistlər hazırlayan fakültəsi tarixən ölkəmizin ali təhsil sistemində özəlliyi ilə seçilib. Bu, bir tərəfdən ixtisasın özünün cazibəsi, təhsilə fərqli yanaşma və burada hökm sürən sağlam mənəvi atmosferlə bağlı olubsa, digər tərəfdən həmin özəlliyi o fakültədə dərs deyən ixtisas müəllimlərinin şəxsiyyəti, onların milli düşüncəyə və ictimai dəyərlərə bağlı yaradıcı fəaliyyəti formalaşdırıb. Təsadüfi deyildir ki, vaxtilə bu ali məktəbin jurnalistika fakültəsində dərs demiş Həsən Şahgəldiyev, Nurəddin Babayev, Nəsir İmanquliyev, Qulu Xəlilov, Şirməmməd Hüseynov, Nəriman Zeynalov, Tofiq Rüstəmov, Famil Mehdi kimi şəxsiyyətlərin adları mətbuat tariximizə qızıl hərflərlə yazılıb. Bu simaların bəziləri sovet dönəmində fakültəyə rəhbərlik edərək həmin təhsil ocağının nüfuzunu yüksəltmiş, ciddi ənənələrin əsasını qoymuş, jurnalist təhsilinin inkişafına öz layiqli töhfələrini vermişlər.

# Kamillik, bütövlük və əsl şəxsiyyət nümunəsi

Ölkəmiz müstəqillik qazandıqdan sonra təhsil sahəsində yeni texnologiyaların tətbiqi ilə yanaşı, əsas vəzifələrdən biri də ötən dövrlərdə qazanılmış dəyərlərin və müsbət təcrübənin qorunub saxlanması olmuşdur. Bu baxımdan bir çox təhsil ocaqları ilə müqayisədə jurnalistika fakültəsi mürəkkəb keçid dövründə öz mənəvi simasını, parlaq ənənələrini ciddi şəkildə qoruya bilmişdir. Zənnimcə, bu uğurun əsas səbəblərindən biri kollektivin iradəsi ilə həmahəng olaraq, eləcə də 1999-2012-ci illərdə fakültənin sükanı arxasında professor Yalçın Əlizadə kimi nüfuzlu və prinsipial şəxsiyyətin dayanması olmuşdur. Məhz onun işgüzarlığı, ali təhsil sisteminə dərindən bələdliyi, tələbkarlığı və yüksək idarəçilik bacarığı sayəsində jurnalistika fakültəsi yeni dövrə itkisiz qədəm qoya bilmişdir.

* * *

Yalçın Əlizadə jurnalistika fakültəsinə birbaşa istehsalatdan - Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsindən gəlib. 1962-ci ildə universiteti bitirdikdən sonra təxminən on il müddətində Azərbaycan radiosunda çalışmış, həmin qurumda sıravi reportyorluqdan "Xəbərlər"in baş redaktoru vəzifəsinə qədər yüksəlmişdi. Bu zaman onun 30 yaşı var idi və jurnalistikadakı parlaq uğurlarına baxmayaraq, 1971-ci ildə bu fakültədə elmi-pedaqoji fəaliyyətə başlamaq dəvətini məmnuniyyətlə qəbul etmişdi.

Üç il uğurla davam edən əyani aspirantura dövründə məşhur həmyerlimiz, SSRİ-də ən görkəmli televiziya nəzəriyyəçisi, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin "Televiziya və radio jurnalistikası" kafedrasının müdiri, professor Ənvər Bağırovun rəhbərliyi ilə "Azərbaycanda radiojurnalistikanın təşəkkülü və inkişafı" mövzusunu araşdırmışdı. 1974-cü ildə həmin mövzuda uğurla namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdı. Yeri gəlmişkən deyək ki, Y.Əlizadənin namizədlik dissertasiyası Azərbaycan radiosunun tarixi və müasir yaradıcılıq təcrübəsi haqqında ilk sistemli elmi-tədqiqat işidir.

İstehsalatda zəngin yaradıcılıq təcrübəsi qazanmış Yalçın müəllimin timsalında hələ o dövrdə kifayət qədər məşhurları olan jurnalistika fakültəsi daha bir alim-şəxsiyyət qazanmış oldu. Çünki mahiyyət etibarilə yüksək peşəkarlıq və ziyalılıq mücəssəməsi olan Y.Əlizadə tezliklə fakültənin həyatına ciddi yeniliklər gətirdi, onun praktika ilə əlaqələrini gücləndirdi, televiziya və radio jurnalistikası tədrisinin tamamilə yeni səviyyəyə qaldırılması üçün öz sözünü dedi.

Amma yaradıcılıqdan da qalmadı. Qəzet və jurnallarla, xüsusən Azərbaycan radiosu ilə ənənəvi əməkdaşlığını davam etdirdi, analitik yazılarla, bir-birindən maraqlı radioçerklərlə çıxış etdi. O, yaxşı bilirdi ki, jurnalistika nəzəriyyə ilə təcrübənin vəhdətindən ibarət olan ixtisaslardandır və bu səbəbdən də auditoriyalarda oxunan mühazirələr, söylənən tezislər yalnız təcrübə gücü qazandıqda həqiqi biliyə çevrilir. Ona görə də Yalçın müəllim tələbələrinin televiziya və radio redaksiyalarında istehsalat təcrübəsi keçməsinə, bu qurumlarla əməkdaşlığının gücləndirilməsinə dəstək olurdu. Təbii ki, bu addımlar tələbələrə təkcə bilik və gələcək iş yeri vermirdi, həm də jurnalistika təhsilinin səmərəsini artırırdı. Buna görə də 1982-ci ildə fakültədə yeni yaradılmış və ilk addımlarını atan Teleradio jurnalistikası kafedrasına dosent Y.Əlizadənin müdir seçilməsini hamı qanunauyğun addım kimi qiymətləndirdi.

Bu vəzifə Yalçın müəllimə imkan verdi ki, teleradio sahəsində üzdə olan peşəkar jurnalistləri tədris işinə cəlb edə bilsin. Təbii ki, Y.Əlizadənin peşə bacarıqları, ustad jurnalistliyi, pedaqoji məharəti ilə yanaşı, onun yüksək təşkilatçılıq bacarığı universitet rəhbərliyinin də diqqətini cəlb etmişdi. Ona görə də 1979-1989-cu illərdə universitetin Müəllim Həmkarlar İttifaqı Komitəsinə sədrlik məhz Yalçın müəllimə həvalə olunmuşdu. Onun bu yüksək vəzifədə necə ləyaqətlə çalışdığını universitetdə hələ indi də xatırlayırlar.

Əlbəttə, Yalçın müəllim, ilk növbədə, jurnalistika təhsilinin mahir təşkilatçısıdır və bunu dekan olduğu 13 il ərzində bir daha sübut etdi. Əslində istənilən adamı vəzifədə daha yaxşı tanımaq olur, çünki kreslo rentgen şüası kimi insanın bütün keyfiyyətlərini üzə çıxarır. Bu mənada professor Yalçın Əlizadə dekan vəzifəsində çalışarkən necə yüksək əxlaq sahibi olduğunu, hansı ictimai ideallara xidmət etdiyini, mənəvi təmizliyini, dürüstlüyünü bir daha nümayiş etdirə bilib. Yəni jurnalistika fakültəsində başqa cür olmaq da mümkün deyil, çünki bu tədris ocağı yaranandan burada Həsən Şahgəldiyev, Nurəddin Babayev, Şirməmməd Hüseynov, Seyfulla Əliyev, Nəriman Zeynalov, Tofiq Rüstəmov, Akif Rüstəmov kimi mənəviyyat adamları fakültənin dekanları olublar. Ona görə də burada dekan vəzifəsini tutmaq daim projektor şüaları altında olmaq deməkdir: sənin hər addımın görünür, izlənir və qiymətləndirilir.

Nəcabətli bir ailədən çıxmış Yalçın müəllim də öz sələflərinin yolu ilə gedərək jurnalistika fakültəsində əxlaqi varisliyi məharətlə təmin edə bildi. Nəzərə alsaq ki, onun dekanlığı mürəkkəb keçid dövrünə, insanların əxlaq və psixologiyasında ciddi boşluqların artdığı bir dövrə düşmüşdü, onda bu böyük şəxsiyyətin fakültədə dəyərləri hansı mənəvi gücün hesabına saxladığını anlamaq olar. Təbii ki, xarakter nümayişi, tələbkarlıq və sərtlik asan başa gəlmir, bəzən sənin prinsipiallığından küsür, tələbkarlığından inciyirlər. Adamlar çox vaxt rəhbərdən mərhəmət, nöqsanlara göz yummaq, yumşaqlıq və güzəşt umurlar. Əlbəttə, Yalçın müəllim mərhəmətli və humanist adamdır, amma keyfiyyətli tədris və intizam məsələsində ondan güzəşt gözləmək mümkünsüzdür.

Bu yaxınlarda yaşı 80-ni haqlamış, adı jurnalistika və təhsil tariximizə yazılmış, Əməkdar jurnalist, professor Yalçın Əlizadəni, bəlkə də geniş auditoriya çox yaxşı tanımır. Çünki hədsiz dərəcədə təvazökardır, həmişə reklamdan, yersiz təbliğatdan uzaq olub. O, bütün şəxsiyyətlər kimi həmişə öz prinsipləri ilə yaşayıb və davranışlarına da çərçivələr qoymağı bacarıb. Yalçın müəllim tutduğu vəzifələrə heç vaxt "bəhrələnmək fürsəti" kimi baxmayıb, harada olubsa, vicdan və ləyaqətlə çalışıb, kimlərinsə xoşuna gəlmək üçün özünü oda-közə vurmayıb, nahaq söz danışmayıb, yaltaqlara meydan verməyib. Həyatının bütün mərhələlərində yeniliklə nəfəs alıb, jurnalist sözünü həmişə məqamında deyib, qələmini məddahlıq alətinə çevirməyib, yaradıcılıqda diletantlığı qəbul etməyib. O, istedadlı adamlara dəyər verər, gənclikdən bu yana dostluq etdiyi insanları həmişə yüksək qiymətləndirər, ehtiyacları varsa, onlara əl uzadar. Yəni Yalçın müəllim elmi, biliyi, şəxsiyyəti, mənliyi ilə çoxlarına nümunə olub. Buna görə də jurnalistika aləmində, ali təhsil sistemində onu nüfuzlu şəxsiyyət və mənəviyyat adamı kimi tanıyır, ehtiram göstərirlər.

Zahirən quru, ünsiyyətə meyilli olmayan, bir az sərt və hövsələsiz adam təsiri bağışlayır, amma yaxınlaşdıqca, mahiyyətə vardıqca, xüsusən böhranlı vəziyyətlərdə onun mərdanə davranışlarını gördükcə bu adamın hansı böyük mənəvi ölçülərlə yaşadığının şahidi olursan. Tanıdıqca da onun dürüstlüyünə heyran olmaya bilmirsən.

* * *

Yaradıcı insan üçün yaş məfhumu məhdudiyyət yaratmır. Bu mənada Yalçın Əlizadə yaradıcılıq ruhunu, yazıb-yaratmaq eşqini həmişə diri saxlayan qələm adamlarındandır. Az-az yazıb, amma maraqlı mövzularda yazıb və qələm də həmişə əlində olub. İlk publisistik əsərləri olan "Muğanın mayakı" (1964) və "Yer altında işıqlar" (1972) kitablarının çapından uzun müddət keçsə də, radiodakı intensiv yaradıcılığının üstündən illər ötsə də, onun jurnalist damarında qan dövranı yenə də əvvəlki ritmindədir. Bu günün özündə də ona maraqlı olan mövzuları qələmə alır, jurnalistikanın aktual problemləri barədə elmi məqalələr yazır, elmi axtarışlarından qalmır. İlk dəfə "Radiojurnalistikanın əsasları" (1991) dərsliyini Yalçın müəllim yazıb, bu kursun xüsusi proqramını da o hazırlayıb. Daha sonralar "Azərbaycan efiri: tarix və müasirlik" (2006) kimi sanballı monoqrafiyanı, "Ədəbi redaktə" fənninin proqramını (Bakı, 2012) ortaya qoyub, neçə-neçə dissertantın və aspirantın elmi rəhbəri olub. Sanballı elmi jurnal və məcmuələrdə onlarca elmi məqaləsi çap olunub.

Yalçın müəllimdə mənim müşahidə etdiyim çox parlaq keyfiyyətlər var: şəxsi ləyaqət hissini daim yüksək tutar, çox qürurludur, gözütoxdur və həmişə nəfsinə hakimdir, layiq olmayan adamı tərifləməz, zərrə qədər də kiçilməyi özünə rəva görməz. Yaltaq adamları heç sevməz, həmin adamlar danışanda mən Yalçın müəllimin üzündə həmişə qəribə istehza görürəm. Əslində insanın neqativ davranışlara reaksiyası onun mənəviyyat sahibi olmasından xəbər verir. Bu mənada professor Yalçın Əlizadə mənəviyyat adamıdır, sözün bütün mənalarında, kamil insandır. O, özünün bu kamilliyi, bütövlüyü, eləcə də mənalı həyatı və işıqlı əməlləri ilə çoxlarımız üçün həqiqi müəllim, vicdanlı alim və əsl şəxsiyyət nümunəsidir.

***Qulu MƏHƏRRƏMLİ,***
***BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının professoru, Əməkdar jurnalist***

# Azərbaycanın ilk satirik jurnalı - «Molla Nəsrəddin»







1906-cı il fevralın 21-də Azərbaycan, rus və tatar qəzetləri Cəlil Məmmədquluzadənin və Ömər Faiq Nemanzadənin Tiflis qubernatoruna ərizə ilə müraciət edərək "Molla Nəsrəddin" adlı satirik-yumoristik jurnalın nəşrinə icazə istədikləri barədə oxucularına məlumat verdilər. Xəbərlər dərc edən mətbu orqanlar arasında "Həyat", "İrşad", "Tərcüman", "Vozrojdeniye", "Kaspi", "Baku", "Novoye obozreniye", "Kavkazskoye utro", "Na povorote" qəzetləri vardı.

Yeni jurnalın nəşrinə icazə verilməsi xəbərini "Novoye obozreniye" 1906-cı il fevralın 24-də, "Kavkazskoye utro" fevralın 26-da, "Kaspi" isə martın 1-də dərc etdi. Jurnalın fəaliyyətə başlaması üçün Tiflis qubernatoru dəftərxanası tərəfindən Cəlil Məmmədquluzadəyə şəhadətnamə martın 4-də verildi.

"Molla Nəsrəddin"in birinci sayı 1906-cı il 7 apreldə işıq üzü gördü. İstedadlı və peşəkar qələm əhlinin ərsəyə gətirdiyi yeni mətbu orqanın məramı, məqsədi də elə ilk qədəmindən bəlli oldu. Əvvəla, ad seçimi yaradıcı heyətin ideyasını ifadə edirdi. Oxucusunu güldürəcəyini adı ilə bəyan edən yeni mətbu orqan gülüş hədəflərini də oxucularına nişan verirdi. Jurnalın birinci sayının üz qabığında verilmiş karikaturada "Molla Nəsrəddin"in qayəsi əks olunmuşdu. Həmin karikaturada Molla Nəsrəddin kimisi dərin yuxuya dalmış, kimisi yenidən yatmağa hazırlaşan soydaşlarını göstərərək gülürdü. Milliyyətcə alman olan karikaturaçı-rəssam Oskar Şmerlinqin bu əsərinin ideya müəllifi hesab edilən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"in kimlərə güləcəyini açıq-aydın bildirirdi: "Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib, ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "xa-xa!" edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəklərinizlə üz-gözünüzü silib, "lənət şeytana!" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.

Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqətlə baxınız camalınıza".

"Molla Nəsrəddin" jurnalının fəaliyyətə başladığı Tiflis şəhəri o zaman Rusiya imperiyasının Qafqazda mərkəzi hesab edilirdi. Mədəniyyətin, maarifin tərəqqisi ilə diqqəti çəkən bu şəhərdə Azərbaycan ziyalılarının bir çox tanınmış nümayəndəsi yaşayırdı. "Molla Nəsrəddin"in redaktoru Cəlil Məmmədquluzadə və təsisçisi Ömər Faiq Nemanzadə bu ziyalıların əksəriyyəti ilə tanış idi.

Jurnalın ilk sayı min tirajla nəşr olundu və Mirzə Cəlilin dediyi kimi, yarısı günortayadək Tiflis şəhərində satıldı. Və qısa müddətdə "Molla Nəsrəddin" şöhrətləndi. Xalqımızın milli oyanışında böyük əməyi olan, Azərbaycanın ilk satirik jurnalı "Molla Nəsrəddin" əsrin dörddə biri ərzində, müəyyən fasilələrlə nəşr olundu. 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edildi. Ümumilikdə 748 sayı işıq üzü gördü. Bütün fəaliyyəti müddətində məşhur olmağı bacardı.

Şöhrət "Molla Nəsrəddin"ə yalnız dostlar deyil, həm də çoxlu düşmən qazandırdı. Çar məmurları, erməni danosçuları bu jurnalın fəaliyyətinə maneələr törətmək üçün müxtəlif vasitələrə əl atırdılar. Molla nəsrəddinçiləri ən çox təəssüfləndirən isə "Molla Nəsrəddin"ə qənim kəsilənlərin arasında halına yandıqları, dərdlərinə gülə-gülə ağladıqları, haqqını, hüququnu tələb etdikləri, tərəqqi edərək azad və xoşbəxt yaşamalarını istədikləri, bunun üçün hər cəfaya qatlaşdıqları soydaşları da var idi. Molla nəsrəddinçiləri ən çox kədələndirən bu idi ki, onların savadsız olmalarına, inkişaf edən dünyanın işlərindən baş çıxarmalarına düşmənləri də səy göstərirdi, özləri də. Şair Mirzə Ələkbər Sabir "Güləyən" imzası ilə "Molla Nəsrəddin"ə yazdığı şeirdə bundan bəhs edirdi:

*Fikr tədris edən əşxası kənar etməliyiz,*
*Hər nasıl olsa bu bidinləri zar etməliyiz,*
*Ölkədən bunları məcburi-fərar etməliyiz,*
*Tez zamanda vətəni, milləti xar etməliyiz;*
*Boyləcə naili-məqsudü məram olmalıyız!*
*Yaşamaq istər isək sırf əvam olmalıyız!*

Jurnalın yaradıcı heyəti öz oxucularını, üz tutduqları auditoriyanı çox yaxşı tanıyır, kimlərə xitab etdiklərini bilirdilər. Odur ki, hələ ilk sayda Cəlil Məmmədquluzadə üzünü oxuculara tutaraq yazırdı: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb, bəzi bəhanələrlə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: "Sözünü o kəslərə de ki, sənə qulaq vermirlər".

Sözünü səni dinləmək istəməyənlərə eşitdirmək üçün böyük zəhmətə, əzab-əziyyətlərə qatlaşmaq, çəfakeş olmaq, fədakarlıq göstərmək gərəkdi. Bu yol mətbuatımızın birincisi - "Əkinçi"dən başlamışdı. Və zaman dəyişsə də, vəziyyət dəyişməmişdi. Xalqın böyük hissəsi onun yolunda şam kimi yanan fədakarlarının səsini eşitmək istəmirdilər. Mirzə Cəlil isə təəssüf hisslərini belə qələmə alırdı: "Hərdən otururam və papağımı qoyub fıkirləşirəm, özözümə deyirəm: ay rəhmətliyin oğlu, axı, bu müsəlmanlardan nə istəyirsən? Sonra öz-özümə cavab verirəm ki, vallah, heç özüm də bilmirəm ki, nə istəyirəm. Lal ol, ay Molla! Nə səmər hasil olacaq bu sözlərdən? Kimdir sənə qulaq verən? Kimdir məcmuə və qəzet oxuyan? Qulaqlar kar, gözlər kor, zövqlər məhv... Kimdir etina edən sənin həcv və məsxərənə? Sən ha yaz, yaz, yaz, yaz..."

XX əsrin əvvəllərində Azərbaycan ziyalıları oxumağın əhəmiyyətini Mirzə Ələkbər Sabirin təbirincə desək,

Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

düşüncəsi ilə təhsilə düşmən kəsilərək oğlunu məktəbə göndərmək istəməyən ataya

*Nə bilirdik nə zəhirmardı kitab?*
*Biz olan evdə haçan vardı kitab?*
*Büsbütün gül kimi insanlarıdıq,*
*Nə müəllim və nə dərs anlarıdıq;*

deyən, öz hüquqsuzluğunu anlamayan, oxuyub savad almağın faydalarından xəbərsiz olan qadına başa salmalı, onu inandırmalı idilər. Və bu vəziyyət, problemlərini özü anlayıb həll etməyi düşünməyənlərin onları bu girdabdan xilas edənlərə də düşmən nəzərləri ilə baxmaları bütün sahələrdə mövcud idi. Bununla belə, Molla nəsrəddinçilər ruhdan düşmürdülər. Hər kəsin anlayacağı sadə, şirin ana dilində xalqa xalqın dərdlərini anladırdılar. "Molla Nəsrəddin"in "qəhrəmanları"nın bəziləri öz eyiblərini görməyərək gülüb keçir, bəziləri isə müəllifə düşmən kəsilirdi. Jurnal isə öz tövrünü dəyişmədən satirik əsərlərinin gülüş hədəfinə çevirdiyi müasirlərinə qurtuluş yolunu göstərirdi.

XX əsrin əvvəllərində Azərbaycanın, azərbaycanlıların ictimai-siyasi, iqtisadi, mədəni həyatında saysız-hesabsız problemlər mövcud idi. "Molla Nəsrəddin" xalqın inkişafına mane olan problemləri, nöqsanları tənqid edirdi. O zaman Azərbaycanda hökm sürən savadsızlıq, məktəblərin azlığı, olanların böyük əksəriyyətinin isə dövrün tələblərinə cavab verməməsi, sayca az oxumuşlarımızın bəzilərinin də doğma millətin dərdlərinə biganə yanaşmaları, qadınlarımızın hüquqsuzluğu, yoxsulluq, səfalət Molla nəsrəddinçiləri düşündürən ən ümdə məsələlərdən idi. "Molla Nəsrəddin"in yazarları xalqımızın mədəni geriliyinə, dini xurafata, mövhumata, cəhalətə, avamlığa, çarizmin mürtəce siyasətinə qarşı inadla mübarizə aparırdılar. Onlar yalnız əsir vətən, əsarətin məngənəsində çırpınan azərbaycanlıların dərdlərini anlatmaqla kifayətlənmirdilər, soydaşlarını tərəqqiyə səsləyirdilər.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Unudulmazlar

# Ürəkləri kaman kimi titrədən səs



*Çinarlar qatar-qatar*
*Qalxıb zirvəyə çatar.*
*Dağa qısılıb yatar,*
*Mışıl-mışıl dərələr.*

Nədənsə, onun haqqında düşünəndə qulaqlara "Dərələr" mahnısının sədaları gəlir. Nəbi Xəzrinin sözlərinə Emin Sabitoğlunun əvəzolunmaz bəstəsi "Dərələr"... Niyə məhz bu mahnı, bəlkə ona görə ki, vətəni vəsf edən bu mahnının alt qatında nə isə bir nisgil, həsrət uyuyur, ona görə? Bəlkə "qalxıb zirvəyə çatmaq, dağa qısılıb yatmaq" ifadələrinin arxasında onun taleyinə bənzərlik görürük?

Axı, qəhrəmanımız da şöhrətin zirvələrinə qalxdı, qəlbləri fəth etdi, amma söykənməyə dağı da, dayağı da yalnız özü oldu həyatda, bir də Tanrı... Şövkət xanımdan danışırıq, adı gələndə həlim bulaq kimi səsi qulaqlara süzülən Şövkət Ələkbərovadan...

### İlk xeyir-duanı Üzeyir bəydən aldı

1922-ci ildə Feyzulla kişi ilə Hökümə xanımın evində dünyaya gələn qızın adını Şövkət qoyurlar. Mənası şan-şöhrət deməkdir. Ailədə Şövkətlə bərabər iki bacı, dörd qardaş böyüyürdü. Aralarında tək Şövkət musiqiyə böyük maraq göstərirdi. Bunu duyan atası onun müğənni olacağına razı olmadığını qətiyyətlə bildirmişdi. Qızın böyüdükcə musiqiyə meylinin öləziməәdiyini görüb onu kamança sinfinə yazdırdı ki, bəlkə yanğısını kamanda söndürsün... Sönmədi... O yanğı Şövkəti Asəf Zeynallı adına musiqi məktəbində Hüseynqulu Sarabskinin sinfinə gətirib çıxartdı.

1937-ci ildə Şövkət üzv olduğu dərnəklərdən birinin tərkibində özfəaliyyət kollektivlərinin müsabiqəsində iştirak edirdi. Müsabiqənin münsiflər heyətində dahi Üzeyir bəy Hacıbəyli, Səid Rüstəmov və Bülbül oturmuşdular. İştirakçıların içində Şövkət hər üçünün diqqətini çəkmişdi, səsi, davranışı və səhnə cazibəsi ilə... Opera Teatrında keçirilən yekun konsertdə Şövkət oxuduğu "Qarabağ şikəstəsi" ilə ilk qalib üçlüyə daxil olur. Gülağa Məmmədov, Fatma Mehrəliyeva və Şövkət Ələkbərova həmin gündən peşəkar musiqi sənətinə qədəm qoyurlar.

Üzeyir bəy həmin il Şövkət Ələkbərovanı Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solisti kimi işə qəbul edir. Daha doğrusu, əvvəlcə xor kollektivinə, sonra solo solist kimi. 1945-ci ilə qədər müğənni orada solist kimi fəaliyyət göstərməklə Azərbaycanın bölgələrində və sovet məkanında müxtəlif səhnələrdə çıxışlar edib. 1945-ci ildən isə artıq Azərbaycan Dövlət Filarmoniyasının solisti, tanınmış müğənni idi. Onu yalnız SSRİ-də deyil, Fransa, İsveçrə, Şri-Lanka, Əfqanıstan, Hindistan, Misir, Əlcəzair, İran, Türkiyə, Polşa və digər xarici ölkələrdə tanıyırdılar. Həmin ölkələrdə dəfələrlə konsertlər vermişdi.

Müğənninin repertuarına Segah, Qatar, Şahnaz kimi muğamlar, Azərbaycan bəstəkarlarının və Orta Şərq xalqlarının mahnıları daxil idi. Hər bir mahnını da özünəməxsus ifa edirdi. Nə kimin ifasına bənzəyirdi onun ifası, nə də kimisə təlqin edirdi, yalnız Şövkət Ələkbərova kimi oxuyurdu.

### Nəğməkar döyüşçü

İkinci Dünya müharibəsi illərində müğənni, demək olar ki, "nəğməkar döyüşçü" olub. Döyüşçülər qarşısında ən çox çıxış edən xanəndə bir dəfə hətta səngərdə konsert zamanı hava hücumunun altında qalıb və kantuziya alıb. Müalicədən sonra yenidən cəbhəyə, səngərlərə çıxış etməyə gedib.

Şövkət xanım illər keçdikcə daha da püxtələşirdi, yalnız Azərbaycan mahnıları və muğamlarını deyil, başqa xalqların mahnılarını da öyrənib, repertuarına daxil edirdi. Getdiyi hər ölkədə onların heç olmasa, bir mahnısını öz dillərində səsləndirirdi. Türk, fars və ərəb dillərində daha çox mahnı bilirdi.

Şövkət Ələkbərova sənəti ilə milyonların sevgisini qazanmışdı, onunla bir ömür boyu birgə yaşamağı çoxları arzulayardı. Azərbaycanda qadın olmaq asan deyil, azərbaycanlı qadının həm də sənətkar olması və həyatda baş çıxartması isə ikiqat çətindir.

Şövkət xanım iki dəfə ailə həyatı qurub, ikisi də uğursuz olub. İlk yoldaşı hərbi həkim idi. Lakin ailənin ömrü uzun olmayıb. Bu evlilikdən Şövkət xanımın Natella adında qızı vardı. İkinci həyat yoldaşı Lətif Səfərov məşhur kinorejissor, tanınmış ssenarist idi. İntiharla ömrünə son qoyan sənətkardan Şövkət xanıma Bəşir adlı oğlan övladı yadigar qalır. Əslində isə o, beş övlad böyüdüb. Belə ki, Şövkət xanımın üç qardaşı müharibəyə gedib, Mirələkbər savaşda itkin düşüb. Onun üç uşağını - Eldarı, Sevdanı, Validəni də müğənni böyüdüb, tərbiyə edib, ailə sahibi olmalarına vəsilə olub. Qardaşının kiçik qızı Validə uzun illər elə bilib ki, Şövkət xanımın öz qızıdır.

Şövkət xanım şöhrətin zirvəsində idi, şairlər onun üçün şeirlər, bəstəkarlar isə mahnı yazırdı. Evi Tofiq Quliyev, Cahangir Cahangirov, Ramiz Mirişli, Vasif Adıgözəlov kimi dahi bəstəkarların doğma ocağı idi. Mahnılar bu evdə bəstələnir, şeirlər bu ocaqda yazılır və Şövkət xanımın məlahətli səsində həyata ilk vəsiqə alırdılar. Polad Bülbüloğlunun da əksər mahnılarının ilk ifaçısı Şövkət xanım oliub. Səməd Vurğun "Oxu gözəl" şeirini Şövkət xanıma ithafən yazmışdı. Səid Rüstəmovun bəstəsi ilə mahnını özündən sonra ilk dəfə Şövkət xanımın yaxın dostu Gülağa Məmmədov onun yubiley mərasimində ifa edib.

*Oxu gözəl, oxu gözəl, qoy səsin*
*Ürəyimdə kaman kimi titrəsin.*

Şövkət Ələkbərovanın Azərbaycan musiqi, muğam, ifaçılıq sənətində rolu əvəzolunmazdır. Yüzlərlə yetirmələri bu gün səhnələrdədir, istər muğamda, istər opera səhnəsində uğurlu ifaçılardır. Neçə-neçə Leylilər və Məcnunlar bəxş edib opera sənətinə... Xanəndə bölgə-bölgə rayonları gəzib, onları seçib, toplayıb təhsil, sonra da sənətə vəsiqə verirdi. Bu mənada Şövkət Ələkbərovanın Azərbaycan musiqi sənətində yüzlərlə "övladı" var.

Tələbələrinə göstərdiyi ana qayğısından isə yetişdirmələri yorulmadan bəhs edirlər. Onları evinə aparıb öz əlləri ilə bişirdiyi yeməklərə qonaq etməyindən, çətin vəziyyətlərində əllərindən tutmasından, yol göstərməsindən...

### Son konsertini şəhidlərə ithaf etdi

1990-cı ildə Bakıda 20 Yanvar faciəsi yaşananda Şövkət xanım Ələkbərova Almaniyada müalicə alırdı. Gəlini Gülnarə xanım danışır ki, ayaq üstündə durmağa taqəti yox idi, xəstəlik onu haldan salmışdı: "Diaspordan bizə dedilər ki, Azərbaycana yardım üçün konsert təşkil etmək istəyirik, Şövkət xanım bu konsertdə iştirak etsə, yaxşı vəsait toplamaq olar. Hamburq şəhərində xəstəxanada idik. Şövkət xanım dedi əlimizdən gələni etməliyik. Konserti təşkil etdik, mən pianinoda ifa etdim, Almaniyada yaşayan qarmon ifaçısı Rəhman və fiziki qüsurlu azərbaycanlı kaman ifaçısı Şövkət xanımı müşayiət etdi. Berlində və Hamburqda konsert verdik. Yığılan vəsait Bakıya göndərildi. Şövkət xanım ayaq üstündə dura bilmədiyindən səhnədə stul qoyduq oturdu və konsert boyu göz yaşları ilə ifa etdi. Bunu heç vaxt heç yerdə reklam etmədi, vətən üçün görülən işdir, borcumuzdur - dedi".

Konsertdə Avropada yaşayan azərbaycanlılar, türklər iştirak ediblər. Şövkət xanım "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə" oxuyub. Tamaşaçılar da Şövkət xanım ağlaya-ağlaya oxuduğu kimi, eynilə ağlaya-ağlaya onu alqışlayırdılar. Şövkət xanım Ələkbərovanın ifasında hamının sevdiyi Cahangir Cahangirovun "Füzuli kantatası" da o gün şəhidlərin ruhuna "çeşmindən qanlı-yaş tökürdü". Bu qərib eldə vətən naminə verdiyi konsert Şövkət xanımın səhnədə son çıxışı idi.

1991-ci ildə Şövkət xanımın qızı Natella amansız xəstəlikdən gənc yaşlarında dünyasını dəyişdi. Şövkət xanım övladının vaxtsız itkisinə, onun körpələrinin anasız qalmalarına dözə bilmirdi. Nəvələrini yanına çəkib onlara "Laylay" deyərdi. O illər oxuduğu da yalnız "Laylay" olardı, gah nəvələrinə, gah da öz-özünə qızının şəninə deyərmiş o "Laylay"nı. Nə səhnəyə çıxarmış, nə də mahnı oxuyarmış. Qanadları qırılmış bülbül kimi çırpınırmış ancaq... Yeri gəlmişkən, xarici şirkətlərdən biri hazırladıqları "Dünya laylaları" adlı layihəyə Şövkət xanımın ifasında Azərbaycan laylasını da daxil edib.

Şövkət xanımın həyatının bu çətin günlərində oğlu Bəşirin qızı dünyaya gəlib. Nəvəyə nənəsinin adını veriblər, Şövkət adını yaşadıblar.

Həyatının son günlərini Şövkət xanım otağına çəkilib, acılı-şirinli həyat xatirələri ilə özü-özünə hesabatını verib və dünyayla 1993-cü il fevralın 7-də vidalaşıb. Son müsahibəsində hamının həyatında narahatlıqlar olur deyib: "Mənim də həyatımda olub, amma bununla belə, mən xoşbəxt insanam".

Şövkət xanım Ələkbərovanın irsi davam edir, davam etdiyi qədər də o yaşayacaq, səsi, ruhu, xatirəsi ilə...

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Bəhram Mansurov - 110

# Unudulmaz tarzən



**Qədim Bakının əsrarəngiz İçərişəhərində 1911-ci il fevralın 12-də dünyaya gəlib Bəhram Mansurov. Varlı, adsanlı, nüfuzlu nəslin övladıydı. Ata-babaları neft quyularından, gəmilərindən, dükanlarından, meyvə və zəfəran bağlarından gələn gəlirləri səxavətlə xərcləyir, xeyirxahlıqları ilə hörmət-izzət qazanırdılar.**

Onlar həm də musiqiyə, muğamlara sevgiləriylə tanınırdılar. Muğam sənətinin inkişafında böyük rolu olmuş bu möhtəşəm nəslin nümayəndələri milli mədəniyyətimizin inkişafında böyük rol oynayıblar. Bəhram Mansurovun babası Məşədi Məlikin adı Azərbaycanın musiqi mədəniyyəti tarixinə Bakı və Abşeronda klassik muğam məclislərinin qurucusu olaraq yazılıb. O, muğam ustası, milli musiqinin ilk təbliğatçılarından biri olub. Bəhram Mansurovun əmisi Mirzə Mansur uzun müddət konservatoriyada çalışıb. Atası Mirzə Süleyman bəy də muğam sənətini dərindən bilir, gözəl tar ifaçısı idi.

Azərbaycanda şura hökuməti qurulduqdan sonra Mansurovlar da digər varlı-dövlətli adamların aqibətini yaşayıblar. Şəhərin müxtəlif yerlərində və ətrafında olan böyük mülkləri, bağ evləri, torpaq sahələri, dükanları, gəmiləri və digər varidatları əllərindən alınıb. Məşədi Süleyman xatirələrində yazıb: "Şura hökumətindən sonra biz çox şeyi itirdik. Bizə qalan muğam oldu".

Məşədi Süleymanın övladları musiqiyə, muğam sənətinə sevgi dolu mühitdə böyüyüb, tərbiyə alıblar. Onun uşaqları kiçik yaşlarından tarda çala biliblər. Bəhram Mansurov on iki-on üç yaşlarında ikən məktəb konsertlərində tarda "Rast", "Çahargah", "Bayatı-Şiraz", "Qatar" kimi muğamları solo ifa edib.

O, ilk təhsilini mədrəsədə alıb. Sonra rus-tatar məktəbində oxuyub. 1921-ci ildə isə böyük qardaşı Ağa Məliklə 10 saylı birinci dərəcəli məktəbə daxil olub. Bəhram Mansurov 1925-ci ildə həmin məktəbi bitirib. Ailəsi ilə birlikdə ilin yarısını Bakıda, yarısını bağ evində yaşadığından bir neçə məktəb dəyişməli olub. 1927-ci ildə o, Mehdi bəy Hacınskinin direktoru olduğu 33 saylı məktəbdə təhsilini davam etdirib. Bəhram Mansurovun oxuduğu son təhsil ocağı Pedaqoji Texnikum olub.

Musiqiyə, muğamlara sevgi ruhunda böyüməsi onun sənət yolunu müəyyənləşdirib. O, 1929-cu ildən Azərbaycan Dövlət Şərq Orkestrində, sonralar Azərbaycan radiosu Xalq Çalğı Alətləri Orkestrində fəaliyyət göstərib. Bir müddət Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

1929-1930-cu illərdə Zülfüqar Hacıbəyov və Qriqor Mədətov "Azkonsert" Birliyi yaradıb və Bəhram Mansurovu onun nəzdində olan orkestrə dəvət ediblər. Məşhur musiqiçilər Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Hüseynağa Hacıbababəyov, Qurban Pirimov və başqaları orkestrin tərkibində çıxış ediblər. Bu orkestrdə uzun müddət işləyən Bəhram Mansurov təşviqat qrupunun tərkibində Azərbaycanın rayonlarında, eləcə də Sovet İttifaqının bir sıra respublikalarında konsertlərdə çıxış edib.

1930-cu illərdə Bakıda musiqi aləmi çox zəngin idi. Tez-tez təşkil edilən Şərq konsertlərində xanəndələri Qurban Pirimov, Əhməd Bakıxanov və Bəhram Mansurov müşayiət edirdilər.

Müslüm Maqomayev iyirmi yaşlı Bəhram Mansurovu xalq musiqi alətlərinin ilk notlu orkestrinə dəvət edib. Bir müddət sonra isə Müslüm Maqomayevin təklifi ilə Radio Komitəsində birinci dərəcəli tar ifaçısı kimi işə götürülən Bəhram Mansurov orada həm solist, həm də müşayiətçi kimi çıxış edib. Tarzən Bəhram Mansurov, kamançaçı Qılman Salahov və qavalçalan Xalıq Babayevdən ibarət olan üçlük tez-tez konsertlərdə iştirak ediblər.

1932-ci ildə Opera və Balet Teatrının bədii rəhbəri və dirijoru, bəstəkar Müslüm Maqomayev onu həmin teatra solist-müşayiətçi vəzifəsinə dəvət edib. Əlli dörd il - ömrünün sonunadək muğam operalarını müşayiət edib.

1934-1935-ci illərdə Bakıdakı Azərbaycan Hərbi Diviziyasının siyasi şöbəsinin rəisi Məmmədəli Əliyev Bəhram Mansurova hərbi özfəaliyyət ansamblına rəhbərlik etməyi tapşırıb. O, 1936-cı ildə Tbilisidə keçiriləcək hərbi orkestrlərin Zaqafqaziya musiqi olimpiadasında iştirak etmək üçün kollektivi hazırlayıb. Bəhram Mansurovun rəhbərlik etdiyi ansambl Gürcüstanın paytaxtında çıxış edərək fəxri fərmanlarla Azərbaycana dönüb. Bu uğuruna görə ona Azərbaycan diviziyasının rəhbərliyi tərəfindən təşəkkür elan olunub.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündəki konsertlərin birində Bəhram Mansurov "Mahur-hindi" muğamını solo, digər konsertdə isə üçlüyün tərkibində Əlövsət Sadıqovu müşayiət edib.

1941-ci ildə Moskvada keçirilən estrada artistlərinin festivalına Azərbaycandan dəvət edilən konsert qrupunun tərkibində tarzən Bəhram Mansurov da olub. Tarzənin xatirələrində o günlər belə yazılıb: "İyunun 21-də bizim qatar Moskvaya yola düşdü. Səhər Rostova çatanda dəhşətli xəbər eşitdik: "Müharibə başlayıb!" Bir neçə gündən sonra Moskvaya çatdıq. Hərbi vəziyyətlə əlaqədar Bakıya qayıtdıq. Bir çox mədəniyyət işçiləri, o cümlədən mən də "bron" alıb, xüsusi təşviqat qruplarının sərəncamına göndərildim. İncəsənət adamları cəbhə xəttində döyüşçülər, arxada isə hospitalda yaralılar qarşısında konsertlərlə çıxış edirdilər".

1941-ci ildə Opera və Balet Teatrının böyük bir qrupu İrana ezamiyyətə göndərilib. Bəhram Mansurov həm solist, həm də xalq çalğı alətləri ansamblının üzvü kimi qrupa daxil olub. O, "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah İsmayıl" operalarında ifaçıları müşayiət edib. Həmin ilin oktyabrında Bakıya qayıdıblar. Bəhram Mansurov muğam dərsini tədris etmək üçün Bakı Musiqi Texnikumuna dəvət olunub. Pedaqoji fəaliyyətinə o vaxtdan başlayıb. Ömrünün sonunadək həmin texnikumda dərs deyib.

1942-ci ildə Bəhram Mansurov digər musiqiçilərlə birlikdə bir ay ərzində Qubada yerləşən Azərbaycan Ordusunun qərargahından 416-cı Taqanroq diviziyasına yollanan döyüşçülər qarşısında çıxış edib. Müharibənin qızğın dövründə, 1941-1943-cü illərdə məşhur xanəndə Cabbar Qaryağdıoğlu ilə hərbi hissələr və qospitallarda konsertlər verib. 1941-ci ildə musiqi briqadasının tərkibində B.Mansurov 3 ay ərzində Kislovodsk, Jeleznovodsk, Yessentuki, Minvodı və Lermontovka hospitallarında yaralı əsgərlər qarşısında müntəzəm çıxışlar edib. Müharibə illərində Bəhram Mansurov bütün Azərbaycanı gəzərək konsertlər verib.

1944-cü ildə B.Mansurov yenə İrana ezam olunub. O, Tehran, Təbriz, Qəzvin, Ənzəli, Rəşt, Ərdəbil, Sərab, Marağa və digər şəhərlərdə sovet əsgərləri və yerli camaat qarşısında çıxış edib.

Bəhram Mansurovun müharibə illərindəki xidmətləri "Qafqazın müdafiəsinə görə", "Böyük Vətən müharibəsi illərində fədakar əməyinə görə" medalları ilə, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə qiymətləndirilib.

1960-cı illərdə solistlərdən ibarət ansambl yaradıb. O, Azərbaycan musiqisinin inkişafında göstərdiyi xidmətlərə görə fəxri adlara, medallara layiq görülüb. Xarici ölkələrdə təşkil olunan mədəniyyət ongünlüklərində, mərasimlərdə iştirak edən Bəhram Mansurovun şöhrəti sərhədlərimizdən kənarda da yayılıb. UNESCO-da Azərbaycan muğamlarını ilk dəfə təmsil edən musiqiçi Bəhram Mansurov olub. 1967-ci ildə Bakıya gələn bu nüfuzlu beynəlxalq təşkilatın rəsmi nümayəndələri Alen Daniyelu və Jak Klark bir çox musiqiçilərin ifasında Azərbaycan muğamlarını dinləyib və Bəhram Mansurovun çalğısını bəyənib. O vaxtdan UNESCO-nun rəsmiləri Bəhram Mansurovla sıx əməkdaşlıq edib. Bu təşkilatın xətti ilə tarzənin ifasında 2 val buraxılıb. Beləliklə, Bəhram Mansurovun şöhrəti Azərbaycan milli musiqisinin bilicisi və mahir ifaçısı kimi dünyaya yayılıb.

Tanınmış bəstəkar Fikrət Əmirov son simfonik muğamını - "Gülüstan-Bayatı-Şiraz"ı Bəhram Mansurovun ifası əsasında yaradıb. Bəstəkar Nəriman Məmmədov "Çahargah" və "Rast" muğamlarını Bəhram Mansurovun ifasından nota yazıb.

Muğam sənətini dərindən bilən Bəhram Mansurov radioda "Muğam" və televiziyada "Məktəblilərin musiqi klubu" verilişlərinin məsləhətçisi olub. O, bir sıra özfəaliyyət müsabiqələrində münsiflər heyətinin üzvü olub. Müxtəlif auditoriya qarşısında, dövri mətbuatda muğamlar haqqında çıxışlar edib. Bəhram Mansurov muğamlarımıza yeni həyat, yeni nəfəs verməklə yanaşı, həm də xanəndələrə düzgün ifa etmək qaydalarını öyrədib.

Tarzən 1985-ci il mayın 14-də, 74 yaşında bu dünya ilə vidalaşıb. Onun ifası lent yazılarının yaddaşında yaşayır. Sənət yolunu yetirmələri davam etdirir. Bəhram Mansurovun övladları da nəslin musiqi ənənələrinin davamçıları olublar. Böyük oğlu Eldar bəstəkar, ortancıl oğlu Aydın xor dirijoru olub. Kiçik oğlu Elxan isə atasının sənətini seçib.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində UNESCO yenidən Bəhram Mansurovun lent yazılarına müraciət edib. Onları kompakt disk şəklində buraxıb. Bəhram Mansurovun yaradıcılığı bu günədək musiqişünaslar tərəfindən tədqiq olunur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Aşıq Əhməd - 100

# Kim desə dünyadan doydum, yalandı...

**Yazının sərlövhəsindəki bu misranı Aşıq Əhmədin ömrünün son vaxtlarında yazdığı bir şeirindən götürmüşük. Ustad az qala doxsan il yaşadı. Ömrü boyu sazın, sözün sehrindən ayrılmadı. Əli qələm tutmayanda sinədən dedi.**



...Bir gün eşitdim ki, yatağa düşüb. Gedib ona baş çəkdim. Hal-əhval tutub, "necəsən, ay aşıq" deyə soruşdum. O, özünə məxsus yarıciddi-yarızarafatla "necə olacam, üzü payıza gedirəm. Deyəsən payızın soyuğuna bir şey qalmayıb..." dedi.

Söhbətimizin kədərli ovqatını dəyişmək üçün dil-ağız elədim, ürək-dirək verdim. O isə öz düşüncələrində idi. Başını qatdığı bircə şey vardısa, o da əlindəki təsbeh idi, bir də qəlbində yaşatdığı, özü ilə ömür yoldaşı olduğu xatirələr...

Onun titrək səsi aramızdakı sükutu pozdu. "Yaxşı gəlmisən" dedi. "Daha əlim sözümə baxmır, heç nə yazıb-poza bilmirəm. Qələm-kağız götür, bir-iki vəsiyyətim var, deyim yaz". Yanımda bloknotum vardı. Amma özümlə gətirdiyim diktofonu açdım. Özünü cəmlədi, ürəyindəki misraları dilə gətirdi:

*Qoca dünya hey boşalıb-dolandı,*
*Dünyaya gəldiyim xeyli zamandı.*
*Şər-pislikdən uzaq olun, amandı,*
*Kim desə dünyadan doydum, yalandı.*

*Bu gözəl dünyadan daim zövq alın,*
*Yaxşılıq qalacaq dünyada, bilin.*
*Yetimə-yesirə siz həyan olun,*
*Gedirəm, a dostlar, salamat qalın.*

*Əhməd deyir: ya rəiyyət ol, ya da şah,*
*Bu dünya heç kimə qalmaz, ey vallah.*
*Dostlar, sizə and verirəm, siz Allah,*
*Biri-birinizdən muğayat olun.*

## Zülmətdə işıq

Əməkdar Mədəniyyət işçisi Aşıq Əhməd Rüstəmov 100 il bundan əvvəl - 1920-ci ildə Kürdəmirin Carlı kəndində anadan olub. Atası Ədil bəy Məşədi Rüstəm oğlu yaşadıqları Kür çayı bölgəsində varlı adamlardan olub. Bu var-dövlət Ədil bəyə ata-babasından miras qalmışdı. Beşqovaq bağı, Əncil bağı, İydəli qoruq, Çərövüş, Böyük Ağ çalanın bir hissəsi Əhmədin atası Ədil bəyin torpaqları olub.

Aşıq Əhməd söhbətinə əlavə edib dedi:

- Atamın Şıx təpəsində mal-qara üçün qışlağı, Kürün o tayında - Xəlifə gölü ətrafında lobya, küncüt, darı, sılıf əkmək üçün torpaq sahələri vardı. İndi baxın görün belə bir xeyrül-əməl sahibinin son aqibəti necə oldu?! 1924-cü ildə vəzifə başına keçənlər atamı "xalq düşməni" adıyla qollarını bağlayıb at döşündə kənddən Kürdəmirə aparanda elə yarı yoldaca, qamışlıqda güllələyib öldürdülər. Sonra da bütün var-dövlətini yığıb apardılar. Özümüzü də evdən bayıra atdılar. Bizə tək bir camış, bir dənə də inək verdilər, vəssalam... Novruz bayramında heç bir şey tapmayan anam pəncərəmizdəki qanovuz pərdəni qoparıb ondan mənim üçün bir köynək tikdirib geyindirdi. Cibimə arpa qovurğası töküb (buğda hər adamda olmurdu) bağdakı çal-çağır məclisinə apardı. Mənə tapşırdı ki, qovurğanı xəlvət ye, heç kəs bilməsin ki, arpa qovurğası yeyirsən.

Tez-tez səsi titrəyən, ah çəkib kövrələn, yalnız əlindəki təsbehə güc verən həmsöhbətim keçdiyi həyat yolunu ardıcıllıqla yada salmağa çalışırdı:

- 1930-cu ildə ibtidai məktəbə qəbul edildim. Çəkdiyim məşəqqətlərə, yaşadığım həyatın ağırlığına baxmayaraq şeirə, sənətə böyük maraq göstərirdim. Əlimə saz götürüb ilk dəfə elədiyim toy bizim Carlı kəndində Nəsir adlı bir oğlanın toyu olub. Ondan sonra anam məni həmkəndlimiz balabançı, həm də saz çalmağı bacaran Əli dayının yanına apardı. O, mənə Ordubadi gözəlləməsini, Qobustan pişrolarını, "Kərəmi" ni, Osmanlı havalarını çaldırdı, oxutdu, oynatdı. Beləliklə, əsl sənətə qədəm qoymağa başladım... Sevdiyim sənət mənim qaranlıq həyatımda parlayan işıq oldu.

## Sənət aləminə layiqli töhfələr

Aşıq Əhmədin yaradıcılığı musiqi aləmi ilə sıx bağlı idi. Mən bunu deyəndə bir çox aşıq və müğənnilərin, xanəndələrin repertuarını nəzərdə tuturam. Onlar aşıq Əhmədin şeirlərinə, qoşmalarına, hətta qəzəl üslubunda yazılmış nümunələrinə böyük həvəslə müraciət etmişlər. Unudulmaz müğənni Rəhilə Həsənovanın ifasında aşıq Əhmədin "Gəlsin" rədifli qoşması necə də gözəl səslənirdi. Həmin lent yazısı Azərbaycan Radiosunun "Qızıl fond"unda saxlanılır. Təkcə bu deyil, Aşıq Əhliman Şirvanlının, Aşıq Ağamurad Mərzəngəlinin və digər sənətkarların repertuarında Aşıq Əhmədin şeir və qoşmaları geniş yer tutur və bu gün də toylarda, məclislərdə, el şənliklərində böyük fəxrlə səsləndirilir. Aşıq Əhmədin ustad Aşıq Şakirin vəfatına həsr etdiyi qəzəl tipli şeirləri bu gün də dillər əzbəridir.

## Sənətkar ehtiramı

Aşıq Əhmədlə bağlı düşüncələr məni xəyalən ötən tarixi günlərə apardı. O günlərə ki, Ümummilli Lider Heydər Əliyev hər dəfə Kürdəmirə gələndə onu ilk qarşılayanların önündə ustad Aşıq Əhməd də olurdu. Yadımdadır, belə görüşlərin birində sinəsində saz Ulu Öndərin qarşısında dayanan Aşıq Əhməd həmin fərəhli anlarda bu misraları söylədi:

*Əhməd deyir, nursan Azərbaycana,*
*Sənə bənzər Heydər doğmaz hər ana,*
*Qüdrətinlə yaraşıqsan cahana,*
*Fikrin bənzər Peyğəmbərə, rəhbərim!*
*Xoş gəlmisən, Kürdəmirə, rəhbərim!*

Aşıq Əhməd şeirini deyəndən sonra özünün bir neçə şeirlər kitabını xatirə olaraq sevimli rəhbərə təqdim etdi. Sənətə və sənətkara həmişə yüksək dəyər verən Ulu Öndər ustadın ona hədiyyə etdiyi kitabları özünə məxsus xoş təbəssümlə qəbul etdi.

...Aşıq Əhmədlə son görüşümüzdə o, mənə bir şəkil verdi. Dedi Saday bəyin şəklidir - qazamatda olanda çəkilib. Bu o Saday bəydi ki, ömrünün axırınacan başının dəstəsi ilə azadlıq uğrunda çar hökumətinə, sonralar da sovetlərə qarşı mübarizə aparıb, elə bu yolda da canını qurban verib...

Mən şəkli ondan alıb çox maraqla baxdım və minnətdarlıq hissi ilə dedim: "Aşıq, çox sağ ol ki, bu tarixi şəkli indiyəcən qoruyub saxlamısan..."

Ustad Aşıq Əhmədlə bu söhbətimizdən 12 il keçib. O, 2008-ci ildə dünyasını dəyişdi, amma sənətinin izi, əziz xatirələri qaldı.

***Tofiq ABDULLAYEV,***
***jurnalist***

● Xalq sənəti

# ŞƏBƏKƏLƏR

## Yaxın və Orta Şərq memarlığında qeyri-maddi mədəni irs nümunəsi bu gün də yaradılır



**Sənətkarlıq baxımından diqqət çəkən əl işlərindən biri də, şəksiz ki, şəbəkə sənətidir. XI-XII əsrlərdən etibarən Azərbaycan milli memarlığında tətbiq edilən, dekorativ sənət növlərindən olan şəbəkə incəsənət əsəri rəngli kiçik şüşə parçalarını yapışqan və mıx olmadan bir-birinə bənd edən ağac elementlərindən ibarət müstəvidir.**



Bir qədər də sadə dillə desək, şəbəkə sənətinin əsas "sirri" balaca alətlərin arasına kiçik şüşə parçalarının qoyulduğu çıxıntılı-girintili ağac hissələrinin bir-birinə keçirilməsidir. Parçalar bərk oduncaqlı ağac növlərindən - şümşad, qoz, fıstıq və palıddan hazırlanır. Tor və ya barmaqlıq mənasını verən şəbəkənin naxışları Günəşi, həyat enerjisini, zamanın əbədi axarını və kainatın sonsuzluğunu simvolik ifadə edir.

Ustaların dediyinə görə, şəbəkə səthinin ölçüləri bir neçə kvadratsantimetrdən kvadratmetrədək dəyişilə bilər. Şəbəkə sənəti əsərlərinin memarlıqla əlaqəsi çoxdur. Buna görə də memarlıq qurğusunun hissəsi - qapı, pəncərə, pilləkən məhəccəri və şirma, çıraq, sandıq, dolab kimi interyerdə istifadə edilən ayrı-ayrı əşyalar olmaqla, iki istiqamətdə təsnif olunur. Şəbəkə ornamentinin əsası daha çox düzgün formalı həndəsi fiqurlardan ibarət olur. Bu baxımdan şəbəkə kompozisiyaları həmin fiqurların bucaqlarının sayına görə - "səkkiz", "on iki", "on altı" və s. kimi xarakterizə edilir.

Azərbaycanda şəbəkə sənətinə gəlincə, Şəki Xan Sarayı bu baxımdan daha çox diqqətçəkəndir. Sarayın birinci mərtəbəsinin əsas zalının cənubundakı şəbəkəli fəvvarə bura qədəm basan hər kəsi heyran edir.

Bədii sənətkarlığın şəhər növü kimi şəbəkə sənəti və rəmzlərinin yayıldığı ərazilər Azərbaycanın tarixi şəhərləri - Şəki, Şuşa, Ordubad, Bakı, Gəncə, Lənkəran, Naxçıvan, həmçinin Rusiya Federasiyası ərazisində yerləşən, azərbaycanlıların yığcam yaşadığı Dərbənd şəhəri olub.

Şəbəkə sənətinin əsas mərkəzi bu gün daha artıq xalis, klassik görünüşdə təmsil olunduğu Şəki şəhərindədir. Burada həmin sənət növünün XVIII-XIX əsrlərə aid qiymətli inciləri toplanıb. Çünki şəbəkə ənənəsi XX əsrin ortalarında bərpa edilərkən öz ikinci nəfəsini məhz buradan almışdı. Bu sənətin klassik nümunəsi 1762-ci ildə işlənən Şəkidəki Şəki xanlarının sarayındadır. Sarayın naxışları şəbəkənin canlı ənənəsini və onun vizual dilini tam həcmdə dövrümüzədək gətirib çatdırıb.

Şuşa şəhərində də şəbəkədən istifadə edilib. Bəzi kompozisiyaları xüsusi görünüşə malik olan Zöhrabbəyovların evinin pəncərə şəbəkəsi həndəsi formaların sadəliyi və xüsusi rəng həlli ilə seçilir.



Şəbəkə sənəti və onun rəmzlərinin daşıyıcıları xalq sənətkarlarıdır. Tanınmış şəbəkə ustalarından naxçıvanlı Mehdi Mehdiyevin, Şahbuzlu Abuzər Bədəlovun, şəkili Abbasqulunun adlarını çəkmək olar. Bu sənətin bilavasitə ötürücüsü, canlı şəbəkə ənənəsini XX əsrə gətirib çatdıran Əməkdar incəsənət xadimi Əbdülhüseyn Babayev olub. Şəbəkə ənənəsinin yenidən canlanması isə daha çox usta Əşrəf kimi tanınan Əşrəf Rəsulovun adı ilə bağlıdır. Bu gün həmin ənənəni oğlu Tofiq və nəvəsi İlqar davam etdirir. Adı çəkilən sənətkarlardan başqa, bu sahədə Şəkidən Soltan İsmayılov, Hüseyn Mustafazadə, Ordubaddan Cabir Cabbarov, şuşalı Rafiq Allahverdiyev kimi barmaqları zərgər olanlar da məşhurdurlar. Bu sənətkarlar tərəfindən bir sıra maraqlı əsərlər yaradılıb və keçmişin bəzi kompozisiyalarının bərpa işləri yerinə yetirilib. Məsələn, Hüseyn Mustafazadə 2002-2004-cü illərdə Almaniyanın "Den Kmalkoh Ege Meck Hembelq GMB" şirkəti ilə bağlanmış müqaviləyə əsasən, Şəki xanlarının sarayının bərpasında yaxından iştirak edib.

Şəbəkə ustalarının fikri yekdildir: sənəti sənətkar, sənətkarı da sənət yaşadar...

***Məhəmməd NƏRİMANOĞLU,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

● Daş yaddaşımız

# Azad olunmuş ərazilərdə 106 yeni abidə aşkarlanıb

**Ötən il 44 günlük Vətən müharibəsinin Azərbaycanın Müzəffər Ordusunun qələbəsi ilə başa çatmasından sonra bir daha məlum oldu ki, Ermənistan nəinki ərazilərimizin bir hissəsini işğal edib, insanlarımızı soyqırımına məruz qoyub, tarixi abidə və dini məbədlərimizi də təhqir edib, Yer üzündən siliblər.**



Xocalının işğalının 29-cu ildönümü günü Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq və yerli KİV-ə müsahibəsində də bu məsələni növbəti dəfə xatırlatdı.

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli fərmanına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələri tərəfindən tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə monitorinqlərə başlanılıb.

Dövlət qeydiyyatında olan 312 tarix-mədəniyyət abidəsinin monitorinqi həyata keçirilib. Bundan əlavə, həmin ərazilərdə yerləşən, dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 106 obyekt (yeni aşkar olunmuş abidə) aşkar edilib.

Aparılan monitorinqlər zamanı 571 mədəniyyət müəssisəsi aşkar edilib ki, onlardan 286-sı kitabxana, 237-si mədəniyyət evi və klub müəssisəsi, 19-u muzey, 24-ü uşaq musiqi məktəbi, 1-i kinoteatr, 2-si teatr, 2-si qalereyadır. Müəssisələrin hamısı demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir.

Burada Füzuli rayonunun Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri xüsusilə qeyd olunmalıdır.

Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələrinin dağıntılara məruz qoyulduğu, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan vurulduğu müəyyən olunub. İbrahimxəlil xanın türbəsi isə tamamilə dağıdılıb.

Dini ibadət yerlərinin dağıdılması və onlardan donuzların saxlanıldığı ictimai tövlə kimi istifadə olunması erməni vandalizminin bariz nümunəsidir.

Qubadlı, Füzuli və Ağdam şəhərlərində vaxtilə yerləşmiş 1941-1945-ci il müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidələri tamamilə məhv edilmişdir. Füzuli şəhərində Məhəmməd Füzulinin heykəli, Laçın rayonunun Güləbird kəndində Sarı Aşığın xatirə muzeyi, Molla Pənah Vaqifin Şuşa şəhərində yerləşən büstü, şairə Natəvanın Ağdam şəhərində yerləşən qəbirüstü abidəsi erməni vandalları tərəfindən dağıdılmışdır.

***"Azərbaycan"***



Foto İlham BABAYEVİNDİR

# Soyqırımı qurbanları anılmışdır

Gəncə Dövlət Universitetində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı professor-müəllim heyəti və tələbələrin iştirakı ilə videokonfrans keçirilib.



Videokonfransda universitetin humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva çıxış edərək diqqətə çatdırıb ki, son 200 ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu səhifələr də yazılmışdır: "Bu dəhşətli hadisələrdən sonra təxminən uzun illər ərzində xalqın qan yaddaşını silməyə aramsız cəhdlər göstərilsə də, bu, mümkün olmamışdır. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır. Ulu Öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü elan edildi".

Tədbirdə digər çıxış edənlər isə bildirmişlər ki, 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirdilər, diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmışlar. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Konfransda o da qeyd olunmuşdur ki, 2020-ci ildə Azərbaycanın qəhrəman Ordusunun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə dövlətimizin gücünü nəinki düşmənə, həm də bütün dünyaya göstərdi.

*Sabir ƏLİYEV, "Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC (012) 440-46-94, (012) 441-19-91*
*"Azərpoçt" ASC (012) 598-49-55, (051) 225-02-13*
*"Qaya" firması (012) 566-77-80, (050) 214-40-53*
*"Kaspi" MMC (012) 432-39-55, (012) 510-82-24*
*"Region Press" MMC (055) 316-79-01, (050) 316-79-01*
*"Səma-M" MMC (012) 594-09-59*
*"Ziya" LTD (012) 497-76-96, (050) 306-77-22*
*"Pressinform" MMC (012) 598-49-52, (070) 340-01-00*
*"City press" MMC (055) 819-09-26*

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Erməni diasporu hərbi xuntaya qarşı çıxdı

*Əvvəli 1-ci səh.*

Ağır sosial-iqtisadi vəziyyət şəraitində həm də miqrasiyanın gücləndiyi müşahidə olunur. Bu gedişlə miqrasiya Ermənistanda əsl demoqrafik fəlakət yaradacaq. Hakimiyyətin bu problemin həlli istiqamətində atdığı addımlar isə faktiki olaraq iflasa uğrayıb. Ekspertlər bildirirlər ki, keçmiş və hazırkı ölkə rəhbərliyi indiyədək miqrasiya prosesini dayandıra, qarşısını ala bilməyib.

Etnoqraf Qranuş Xaratyan xatırladır ki, hələ 13 il bundan əvvəl hökumət miqrasiyanın azaldılmasını nəzərdə tutan strateji proqram işləyib hazırlayıb: "Ancaq indiki mənzərəyə əsasən, görünür ki, bu proqram heç bir nəticə verməyib. İnsanlar ağır vəziyyətdən bezib ölkəni tərk edirlər. Digər tərəfdən, qanunun selektiv tətbiqi səbəbindən də onlar ölkədən çıxıb gedirlər. Yəni Ermənistan vətəndaşları çoxdan bilirlər ki, qanunlar yazılırsa, bu, hələ onların adi vətəndaşlara şamil ediləcəyi demək deyil. Oliqarxlar, o cümlədən məmur və deputatlar, siyasi hamiləri olanlar inhisarçıya çevriliblər. Onların iqtisadi bazarda başqalarına da yer vermələri ilə bağlı nə iradəsi, nə istəyi, nə də planı var. Bu, ölkəni tərk edənlərin sayını daha da artırır".

Bütün bunlar Ermənistandakı böhranlı vəziyyətin nə dərəcədə ağır olduğunu aydın şəkildə göstərir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# BİLDİRİŞ

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən, İqtisadiyyat Nazirliyi tərəfindən Yengicə su anbarı ilə bağlı hazırlanmış texniki-iqtisadi əsaslandırma və layihə sənədlərinin ekspert qiymətləndirilməsi xidmətinin satın alması məqsədilə keçirilən elektron tenderdə iddiaçıların tender təkliflərinin və tender təklifinin 1faizi həcmində bank təminatlarının təqdim edilməsinin son müddəti **13 aprel 2021-ci il saat 17:00-dək** uzadılmışdır. Təklif zərflərinin açılışı **14 aprel 2021-ci il saat 15:00-da** https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet portalı vasitəsilə həyata keçiriləcəkdir.

*Tender komissiyası*

# Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

## *təkliflər sorğusu elan edir*

**Tenderi keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**
**Ünvan: Bakı şəhəri, Az 1022, S. Vurğun küçəsi, 135**

1. ***Təkliflər sorğusu keçirən:*** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Aparatı.
2. ***Təkliflər sorğusunun predmeti:*** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin inzibati binasının qarşısındakı blakiratorların təmiri işlərinin satınalınması.
3. ***Qiymət:*** vergilər (ƏDV) və sığorta xərclərini daxil etmək şərtilə təqdim olunmalıdır.
4. ***Hesablaşma qaydası:*** təkliflər sorğusunun qalibi tərəfindən görüləcək işin haqqı köçürmə (nağdsız) qaydası ilə həyata keçiriləcəkdir.
5. ***İddialar:*** bütün iddialar barədə tərəflər bir-birinə məlumat verə bilərlər.
6. ***Məsuliyyət:*** görülmüş işlərin keyfiyyətinə görə təkliflər sorğusunun qalibi cavabdehdir.
7. ***Maliyyələşmə mənbəyi:*** dövlət büdcəsi.
8. İddiaçılar Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

8.1. təkliflər sorğusunda iştirak etmək üçün müraciət;
8.2. iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi;
8.3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması barədə arayış;

İddiaçı haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən tələb olunan digər sənədlərdə aşağıdakı məlumatlar əks etdirilməlidir:

8.4. iddiaçının müvafiq işlərlə bağlı Azərbaycan Respublikasında təcrübəsini təsdiq edən sənədlər (İddiaçının müvafiq sahədə ən azı 1 il təcrübəsi olmalıdır);
8.5. təkliflər sorğusu prosedurunda iddiaçı tərəfindən əlaqələndirici şəxs haqqında məlumat.

**Maraqlanan təşkilatlar nurlan.soltanov@maliyye.gov.az mail ünvanı və 4043443 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.**

**Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 08.04.2021-ci il saat 16:00-dək qəbul olunur.**

*Satınalma komissiyası*

# Beynəlxalq aləm



## Türkiyə sahilləri yaxınlığında 231 miqrant xilas edilib

Yunanıstandan çıxarılan 231 miqrant Türkiyə sahilləri yaxınlığında xilas edilib. Bu barədə Türkiyənin Sahil Mühafizəsi İdarəsinin komandanlığı məlumat yayıb. Miqrantların Türkiyənin Egey dənizindəki ərazi sularına çıxarılması ilə bağlı 7 ayrı-ayrı insident qeydə alınıb.

İzmir, Balıkesir və Çanaqqala vilayətlərinin sahillərindən miqrantları xilas etmək üçün Türkiyə sahil mühafizəsinin katerlərindən istifadə olunub. Yüzlərlə qeyri-leqal miqrant təhlükəsiz rayonlara aparılıb.

Xilas edilmiş insanlar Türkiyənin sahil mühafizəsinin əməkdaşlarına təşəkkür ediblər.

## Nigeriyada 14 nəfər həlak olub

Nigeriyanın qərbində silahlı şəxslərin hərbi bazaya və onun yaxınlığındakı rayonlara hücumu nəticəsində 14 nəfər həlak olub. Bu barədə yerli "PM News" qəzeti xəbər verir. Məlumata ğörə, 200-ə yaxın silahlı şəxs Niger ştatının Allava rayonundakı bazaya hücum edərək 6 əsgəri və 1 polisi öldürüb. Bundan sonra onlar hərbi bazanı yandıraraq ətraf rayonlara yollanıblar. Orada daha 7 nəfəri qətlə yetirib, bir neçəsini isə oğurlayıblar.

Ştatın qubernatoru Abubakar Sani-Bello sakinləri sakitliyə əməl etməyə çağırıb.



## Argentina Prezidenti koronavirusa yoluxdu



Argentina Prezidenti Alberto Fernandes koronavirusa yoluxub. Bu barədə Prezident öz "Twitter" səhifəsində yazıb.

O, COVID-19-a görə test verdiyini və bu testin müsbət çıxdığını bildirib. Prezident özünü yaxşı hiss etdiyini deyib.

Xatırladaq ki, KİV-də A.Fernandesin bu ilin yanvarında koronavirusa qarşı peyvənd olunduğu barədə məlumat verilmişdi.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatı və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Hikmət Məmmədova atası

**BABA MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlıya həyat yoldaşı

**NAİLƏ İSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP-ın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədova atası

**BABA MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Asif Əsgərov və Nəsimi Rayon İcra Hakimiyyətinin kollektivi rayon Ağsaqqallar Şurasının sədri

**AYDIN VƏLİ OĞLU HEYDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5106
Sifariş 588
Qiyməti 40 qəpik